RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 67 (8660) ŞƏNBƏ, 3 aprel 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Azərbaycanın türk dünyasına böyük töhfəsi

## İlham Əliyev Vətən müharibəsində Qələbə ilə həm də türkdilli dövlətlərin daha da yaxınlaşmasına xidmət edən tarixi missiyanı yerinə yetirdi

**Ortaq milli-mədəni dəyərləri bölüşən türkdilli dövlətlərin dostluğu, sıx əməkdaşlığı, həmrəyliyi bu gün təzadlarla dolu beynəlxalq münasibətlər sistemində olduqca mühüm əhəmiyyət daşıyır. Çünki bu eyni kökdən gələn türk dövlətlərinin inkişafı, öz maraqlarını təmin etməsi, möhkəmlənməsi baxımından olduqca vacibdir.**

### Naxçıvandan başlanan yol

Azərbaycan türk cümhuriyyətləri ilə əlaqələrində yuxarıda qeyd olunan prizmadan çıxış edir və daim buna sadiq qalır. Təsadüfi deyil ki, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası (Türk Şurası) da Azərbaycandan başlanan bir tarixi missiyadır. 2009-cu ildə Naxçıvanda təsis olunan Türk Şurasının məqsəd və vəzifələri türkdilli dövlətlər arasında qarşılıqlı etimadın möhkəmləndirilməsi, regionda və dünyada sülhün bərqərar olunması, xarici siyasət məsələlərinə ortaq yanaşmanın təşviqi, maraq kəsb edən bütün sahələrdə regional və ikitərəfli əməkdaşlığın gücləndirilməsi, beynəlxalq terrorizm, separatçılıq, ekstremizm və transmilli cinayətkarlığa qarşı mübarizənin əlaqələndirilməsi, elm, texnologiyalar, təhsil və mədəniyyət sahəsində qarşılıqlı əlaqələrin genişləndirilməsi, ticarət əlaqələri və investisiyalar üçün əlverişli şəraitin yaradılması və sairdir.

2019-cu ilin oktyabrında Türk Şurasının Bakıda keçirilən VII Zirvə görüşü bütün dünyaya verilən çox mühüm mesajlarla yadda qaldı. Belə ki, dövlət başçılarının çıxışları göstərdi ki, münasibətlərin inkişafı ilə bağlı irəli sürülən təklif gələcəkdə türkdilli dövlətlərin birliyini daha da gücləndirəcək. Ən əsası isə Bakı görüşü bir daha təsdiqlədi ki, qloballaşan və dəyişən dünya nizamına türk dövlətlərinin həmrəylik nümayiş etdirməsi olduqca vacibdir. Bakıda keçirilən sonuncu Zirvə görüşündə təşkilatın sıraları da genişləndi. Belə ki, həmin vaxta qədər Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyənin üzv olduğu Türk Şurasına daha bir türk dövləti - Özbəkistan qoşuldu. Təbii ki, bu ölkənin Türk Şurasında təmsil olunmaq qərarı dərin çoxəsrlik köklərə əsaslanan mədəni və tarixi qardaşlığı müasir dövrün tələblərinə uyğun olaraq türkdilli dövlətlərin xalqlarının rifahı naminə daha da inkişaf etdirmək baxımından mühüm əhəmiyyət kəsb edir.

### Türk Şurası Azərbaycana mənəvi və siyasi dəstək göstərdi

Hazırda Türk Şurasına sədrlik edən Azərbaycan təşkilatın dünyada nüfuzunun daha da artırılması, üzv ölkələr arasında əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsi istiqamətində səylər göstərir. Lakin Azərbaycanın Türk Şurasında sədrliyi çox mürəkkəb dövrdə, koronavirus pandemiyası şəraitində keçir. Buna baxmayaraq, Azərbaycan üzv dövlətlərin maraqları baxımından Şuranı uğurla səfərbər edir. Martın 31-də keçirilən Türk Şurasının videokonfrans formatında qeyri-formal Zirvə görüşü də Azərbaycanın sədrliyi dövrünə təsadüf edir.

Ardı 2-ci səh.

# Türkiyə hər zaman Azərbaycanın yanındadır



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 2-də Türkiyə Respublikasının ticarət naziri xanım Ruhsar Pekcanın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Ruhsar Pekcan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı. Prezident İlham Əliyev də Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, özünün də salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.

Türkiyədə Azərbaycanın uğurlarından qürur duyulduğunu deyən Ruhsar Pekcan Vətən müharibəsi zamanı türk xalqının Azərbaycandakı hadisələri və Prezident İlham Əliyevin fəaliyyətini yaxından izlədiyini, qazanılan uğurlara sevindiklərini bildirdi.

Prezident İlham Əliyev Türkiyə xalqının dəstəyini hər zaman hiss etdiyini və Vətən müharibəsində də Türkiyə ictimaiyyətinin Azərbaycanın yanında olduğunu vurğuladı. Dövlətimizin başçısı müharibənin ilk günündən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın verdiyi önəmli bəyanatları yüksək qiymətləndirdi. Prezident İlham Əliyev Vətən müharibəsində Türkiyə mətbuatının fəaliyyətinə toxundu, müharibə ilə bağlı məlumatların dünyaya yayılmasında onun xüsusi rolunu yüksək qiymətləndirdi.

Həm müharibə zamanı, həm də sonrakı dövrdə Türkiyə ictimaiyyətindən çoxlu dəstək məktubları aldığını deyən dövlətimizin başçısı bunun birliyimizin növbəti təzahürü olduğunu bildirdi.

# Birinci vitse-prezident Mehriban Əliyeva Aprel döyüşləri ilə bağlı paylaşım edib

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsində Aprel döyüşləri ilə bağlı paylaşım edib. AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir:**

"Aprel döyüşlərindən beş il keçir. Vətən uğrunda həlak olmuş bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm. Uca Tanrı hər zaman xalqımızı qorusun, doğma Azərbaycanımıza sülh, əmin-amanlıq və xoş günlər bəxş etsin!"



# Pandemiya dövründə virusla mübarizədə vətəndaş məsuliyyəti vacib şərtdir

**Dünyada koronavirusa yoluxma statistikası hər gün yenilənməkdə, göstəricilər isə hələ də təəssüf doğurmaqda davam edir. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) son məlumatına əsasən, təhlükəli virusa ən çox yoluxma yenə ABŞ-da qeydə alınıb.**

Daha sonra Braziliya, Hindistan, Rusiya, Fransa, Böyük Britaniya, İtaliya, Türkiyə, İspaniya, Almaniya, Kolumbiya və Argentina gəlir.

Ölkəmizdə də koronavirusa yoluxma və ölüm hallarının sayı artıb. Nazirlər Kabineti yanında Operativ Qərargahın hər gün açıqladığı rəqəmlər bir ildən çoxdur hər birimizin həyatını təhdid edən təhlükəli virusun öz meydanını genişləndirdiyini söyləməyə əsas verməklə yanaşı, bizi daha da ehtiyatlı olmağa səsləyir.

Vəziyyətin mürəkkəbləşdiyi bu günlərdə bəzi vətəndaşlarımızın həm özünün, həm da başqalarının səhhətinə laqeyd yanaşdığının, beləliklə, koronavirusun əhatəsini genişləndirməsinə şərait yaratdığnın şahidi oluruq. Faktlara nəzər salaq. Dünən Zaqatala Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən koronavirus infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə keçirilən reydlər zamanı ictimai yerdə aktiv koronavirus xəstəsi aşkarlanıb. Mübariz İbrahimovun COVID-19 testinin nəticəsi pozitiv olduğu üçün ev şəraitində müalicə təyin edilməsinə baxmayaraq, yaşadığı ünvanı tərk etdiyi müəyyən olunub.

Ardı 7-ci səh.



# "Şəfəq-Asiman" Azərbaycanın enerji ehtiyatlarına əlavə güc qatacaq

Xəzər dənizinin Azərbaycan sektorundakı "Şəfəq-Asiman" blokunda ilk qaz-kondensat ehtiyatları aşkar edilib. Bu, keçən ilin əvvəlindən qazılmağa başlayan kəşfiyyat quyusunda 7189 metr dərinlikdə aparılan kompleks tədqiqat işləri nəticəsində baş verib.

Beləliklə, yataqda fasilə layının qazılması uğurla tamamlanıb. Ehtiyatların tam müəyyən edilməsi məqsədilə strukturun tağı istiqamətində əlavə bir qiymətləndirici yan lülənin qazılması üçün müvafiq texniki layihələndirmə də aparılacaq. "Şəfəq-Asiman"da kəşfiyyat işləri SOCAR (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) və BP şirkətlərinin birgə layihəsi çərçivəsində həyata keçirilir. Yataq üzrə Hasilatın Pay Pölgüsü Sazişinin (HPBS) kəşfiyyat proqramına uyğun şəkildə qazma əməliyyatı dənizin 623 metr dərinliyində BP-nin operatorluğu ilə aparılıb və SOCAR-ın törəmə şirkəti olan "Caspian Drilling Company" tərəfindən Heydər Əliyev adına yarımdalma qazma qurğusu vasitəsilə yerinə yetirilib.

Ardı 4-cü səh.

◆ Qarabağ dirçəliş yolundadır

# Müharibə uşaqları



## İkinci Qarabağ savaşına şahidlik etmiş azyaşlı və yeniyetmələrin psixoloji durumunun yaxşılaşdırılması üçün mühüm layihə həyata keçirilir

**...Şirin yuxudan dəhşətli partlayış səsinə dik atılmışdı və biixtiyar olaraq yerindən sıçrayıb çarpayının altına girmişdi.**

Evləri silkələnirdi. Qorxu içində valideynlərini səsləmək istəyirdi. Lakin səsini çıxarda bilmirdi...

13 yaşlı Fəxrinin və onun kimi digər uşaqların İkinci Qarabağ müharibəsi dövründə yaşadığı dəhşətli anlar həmin vahiməli gecə ilə bitməmişdi. Demək olar ki, uşaqlar müharibə dövründə hər gün düşmənin döyüş meydanından kilometrlərlə uzaqda yerləşən yaşayış yerlərimizi atəşə tutması nəticəsində ölümlə üz-üzə qalmış, savaşın ağrı-acısı qətrə-qətrə, zərrə-zərrə iliklərə işləmiş, bu qan-qadanın bir parçasına çevrilmişdilər...

Ardı 5-ci səh.

# Ermənistan müxalifətinin parçalanması Paşinyanın imkanlarını artırır

Ermənistanda növbədənkənar parlament seçkilərinin yaxınlaşdığı bir vaxtda müxalif düşərgədə parçalanmaların baş verdiyi müşahidə edilir. Bu, əsasən, keçmiş hərbi xuntaya aiddir. Sabiq prezident Serj Sarkisyanın sədri olduğu Respublika Partiyasının seçkilərə qatılmayacağı barədə xəbərlər yayıldıqdan sonra Robert Koçaryanın seçkilərə ciddi hazırlaşdığı məlum olub.

"Hraparak" qəzetinin xəbərinə görə, Robert Koçaryanın komandasına daxil olanlar arasında VivaCell-MTS mobil operatorunun baş direktoru Ralf Yirikyan, eks-müdafiə naziri Seyran Ohanyan, eks-baş qərargah rəisi Yura Xaçaturov, eks-baş nazir müavini Arman Qevorkyan daxildir. Sabiq prezidentin başçılıq etdiyi siyasi qüvvənin seçki siyahısında 3-cü şəxs eks-ədliyyə naziri Arpine Ovannisyan olacaq. Keçmiş baş nazir Karen Karapetyan seçkiyə qatılmasa da, Koçaryana hər cür dəstək verməyə hazır olduğunu deyib.

Qeyd edək ki, Ermənistanda parlamentdə təmsil olunan müxalif partiyalar növbədənkənar seçkilərə qatılmağa hazırdır. Lakin parlamentdən kənar müxalifət partiyalarının bu məsələdə mövqeyi haçalanıb. Məsələn, artıq məlumdur ki, Ermənistan müxalifətinin birləşdiyi "Vətənin qurtuluşu hərəkatı"nda yer alan partiyaların heç də hamısı növbədənkənar parlament seçkilərində iştirak etmək fikrində deyil. Hərəkatın lideri Vazgen Manukyan bu xüsusda bildirib: "Nikol Paşinyanın dövründə keçirilən seçkilər Ermənistan üçün fəlakət olacaq. Mən bu seçkidə iştirak etməyəcəyəm".

Yalnız "Vətənin qurtuluşu hərəkatı"nda yer alan "Vətən" partiyası seçkilərdə iştiraka hazır olduğunu bildirib. Bütün bunlar artıq növbədənkənar parlament seçkiləri məsələsində Ermənistan müxalifətinin parçalandığını göstərir. Bu isə Paşinyanın qələbə şansını artırır.

Ermənistanın sabiq prezidenti Levon Ter-Petrosyan da rəhbərlik etdiyi Erməni Milli Konqresinin növbədənkənar seçkilərə qatılmayacağını elan edib. O, indiki reallıqda erkən seçkidən imtina etdiklərini vurğulayıb. Digər müxalifət təmsilçiləri də erkən seçkilərlə razılaşmayıblar. Baş nazirə qarşı çıxan müxalif fəallar Paşinyanın maksimum aprelin sonlarına qədər istefa verməsi tələbini irəli sürüblər.

Ardı 7-ci səh.

## Qoyuluş gücü 230 MVt olan günəş elektrik stansiyasının tikintisi ilə bağlı pilot layihənin həyata keçirilməsi tədbirləri haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Bərpa olunan enerji mənbələrindən istifadə sahəsində pilot layihələrin həyata keçirilməsi tədbirləri haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 5 dekabr tarixli 1673 nömrəli Sərəncamına uyğun olaraq, qoyuluş gücü 230 MVt olan günəş elektrik stansiyasının tikintisi ilə bağlı pilot layihənin icrasını təmin etmək məqsədilə **qərara alıram:**

Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1. Qoyuluş gücü 230 MVt olan günəş elektrik stansiyasının tikintisi ilə əlaqədar “İnvestisiya müqaviləsi”nin, “Enerji alqı-satqı müqaviləsi”nin, “Ötürücü şəbəkəyə qoşulma müqaviləsi”nin, “Torpaq icarə müqaviləsi”nin, “Birbaşa razılaşma”ların və “Müstəqil mühəndis müqaviləsi”nin imzalanması ilə bağlı zəruri tədbirlər görsün;

2. Azərbaycan Respublikasının hökuməti adından imzalanmış müvafiq müqavilələri təsdiq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Azərbaycan Respublikasının Energetika Nazirliyi və “Azərenerji” Açıq Səhmdar Cəmiyyəti ilə birlikdə bu Sərəncamın 1-ci bəndində göstərilən “İnvestisiya müqaviləsi”ndə və “Enerji alqı-satqı müqaviləsi”ndə nəzərdə tutulan öhdəliklərin yerinə yetirilməsi üçün zəruri tədbirlər görülməsini təmin etsin;

4. aidiyyəti qurumlarla birlikdə pilot layihənin həyata keçirildiyi ərazilərdə zəruri xarici və daxili infrastrukturun təkmilləşdirilməsi, günəş elektrik stansiyasının bu Sərəncamın 1-ci bəndində göstərilən “Enerji alqı-satqı müqaviləsi”nə və “Ötürücü şəbəkəyə qoşulma müqaviləsi”nə uyğun olaraq, nəzərdə tutulan vaxtda və parametrlərlə ötürücü şəbəkəyə qoşulması, eyni zamanda, layihənin vaxtlı-vaxtında yerinə yetirilməsini təmin etmək üçün tələb olunan digər inzibati və texniki məsələlərin icrası istiqamətində müvafiq tədbirlər görülməsini təmin etsin;

5. Bakı şəhərinin və Abşeron rayonunun inzibati ərazilərində qoyuluş gücü 230 MVt olan günəş elektrik stansiyasının tikiləcəyi ərazilər üzrə dövlət torpaqlarının icarəyə vermək hüququ ilə Azərbaycan Respublikası Energetika Nazirliyinin daimi istifadəsinə verilməsi üçün müvafiq tədbirlər görülməsini təmin etsin;

6. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 aprel 2021-ci il*

## Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 12-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası Mülki Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (I kitab), maddə 250, № 5, maddə 323; 2002, № 12, maddə 709; 2003, № 8, maddə 420; 2004, № 3, maddə 123, № 5, maddə 318, № 6, maddə 415, № 10, maddə 761, № 11, maddə 901; 2005, № 2, maddə 61, № 6, maddə 466, № 8, maddələr 684, 692, 693, № 11, maddə 996, № 12, maddə 1085; 2006, № 2, maddə 68, № 3, maddə 225, № 5, maddə 387, № 6, maddə 478, № 8, maddə 657, № 12, maddə 1005; 2007, № 2, maddə 80, № 6, maddə 560, № 8, maddə 745, № 10, maddə 937, № 11, maddə 1053, № 12, maddələr 1215, 1219; 2008, № 3, maddə 145, № 6, maddə 456, № 7, maddə 602, № 12, maddə 1049; 2009, № 2, maddə 47, № 5, maddə 295, № 6, maddə 404, № 7, maddə 517; 2010, № 2, maddə 75, № 3, maddə 171, № 4, maddələr 265, 266, 276; 2011, № 2, maddə 71, № 7, maddə 586, № 8, maddə 750, № 12, maddələr 1073, 1102; 2012, № 1, maddə 5, № 5, maddə 403, № 6, maddə 498; 2013, № 1, maddə 15, № 6, maddə 620, № 11, maddə 1280, № 12, maddələr 1469, 1478; 2014, № 2, maddə 96, № 7, maddə 768; 2015, № 3, maddə 254, № 5, maddə 512, № 7, maddə 814, № 10, maddə 1093; 2016, № 1, maddə 26, № 2 (I kitab), maddələr 186, 204, № 3, maddə 401, № 4, maddələr 640, 646, № 6, maddə 1005, № 7, maddə 1248, № 12, maddələr 1998, 2018; 2017, № 2, maddələr 151, 153, № 5, maddələr 703, 735, № 6, maddə 1035, № 11, maddə 1953, № 12 (I kitab), maddələr 2210, 2234, 2239; 2018, № 2, maddə 142, № 4, maddə 650, № 5, maddələr 845, 851, № 11, maddə 2212, № 12 (I kitab), maddələr 2467, 2518, 2526, 2533; 2019, № 1, maddələr 23, 50, № 5, maddələr 806, 812, 814, № 6, maddələr 994, 996, № 7, maddə 1202, № 8, maddə 1369, № 11, maddə 1681, № 12, maddə 1908; 2020, № 5, maddə 515, № 7, maddələr 822, 832, 839, 843; Azərbaycan Respublikasının 2020-ci il 20 noyabr tarixli 198-VIQD nömrəli, 18 dekabr tarixli 214-VIQD nömrəli və 22 dekabr tarixli 230-VIQD nömrəli qanunları) 14.2.1-ci maddəsinə birinci halda “müqavilələr” sözündən sonra “(əmək müqavilələri istisna olmaqla)” sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 fevral 2021-ci il*

## Ə.C.Əhmədzadənin Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Əhməd Cuma oğlu Əhmədzadə Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 aprel 2021-ci il*

Milli Məclisin iclasında

# Şəhid ailələri və müharibə veteranlarının vahid reyestri yaradılır

Aprelin 2-də Milli Məclisin növbəti plenar iclası keçirildi. Cari məsələlərin müzakirəsində komitə sədrləri Zahid Oruc, Siyavuş Novruzov, deputatlar Məlahət İbrahimqızı, Fazil Mustafa, Ceyhun Məmmədov, Şahin Seyidzadə, Bəhruz Məhərrəmov, Sədaqət Vəliyeva, Aydın Mirzəzadə və Aqil Abbas bir sıra məsələlərə münasibət bildirdilər, təkliflərini diqqətə çatdırdılar.



Gündəlikdəki məsələlərin müzakirəsi “Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) illik məruzəsi”nin dinlənilməsi ilə başladı. 2020-ci il üzrə illik məruzəni parlamentə təqdim edən ombudsman Səbinə Əliyeva öncə Vətən müharibəsində qazanılan tarixi qələbə münasibəti ilə müzəffər Ali Baş Komandan İlham Əliyev başda olmaqla qəhrəman ordumuza, bütün xalqımıza təbrik ünvanlayıb, şəhidlərimizin müqəddəs ruhu qarşısında baş əydiyini bildirdi, qazilərimizə şəfa dilədi.

Qeyd etdi ki, ölkədə ictimai-siyasi sabitliyin təmin olunması, ictimai nəzarətin və korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi, dövlət orqanlarının fəaliyyətində səmərəliliyin artırılması məqsədilə idarəçilik sistemində tətbiq edilən yeniliklər aşkarlığın, şəffaflığın və qanunun aliliyinin təmin edilməsində, insan hüquqlarının etibarlı müdafiəsində özünü göstərməkdədir.

Ombudsman bildirdi ki, yola saldığımız ildə COVID-19 pandemiyası müəyyən çətinliklər yaratsa da, Azərbaycanda əhalinin həssas qruplarının dəstəklənməsinə yönəlmiş proqram və layihələrin icrası davam etdirilib. Ölkə Prezidentinin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın göstərişlərinə əsasən, həyata keçirilən tədbirlər pandemiya şəraitinin iqtisadiyyata, sosial müdafiəyə, məşğulluğa, sahibkarlığa mənfi təsirlərinin azaldılmasında əhəmiyyətli rol oynayıb. Ombudsman təsisatı da pandemiyaya qarşı mübarizədə fəal iştirak edib.

Deputatların nəzərinə çatdırıldı ki, ombudsman 44 günlük Vətən müharibəsinin gedişində erməni təcavüzünə məruz qalmış bölgələrə mütəmadi səfərlər edib, dağıdılmış yaşayış evlərinə və infrastruktur obyektlərinə baxışlar keçirilib, həlak olmuş şəxslərin yaxınları ilə, yaralılar və zərərçəkənlərlə görüşüb, yaranmış problemlərin aradan qaldırılması məqsədilə yerli icra orqanları ilə məsləhətləşmələr aparıb. Həmçinin Ermənistan tərəfindən 2020-ci ilin iyul ayında və 27 sentyabrdan sonrakı dövrdə Azərbaycanın dinc əhalisinə qarşı törədilmiş vandalizm aktları və müharibə cinayətləri nəticəsində dəymiş zərərin beynəlxalq hüquq normaları çərçivəsində qiymətləndirilməsi və beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması məqsədilə Tovuz, Naftalan, Tərtər, Gəncə və Bərdə şəhərlərinə faktaraşdırıcı missiyalar həyata keçirilib. Əsir düşmüş Azərbaycan hərbi qulluqçularına münasibətdə beynəlxalq hüquq normalarının və humanitar hüquq qaydalarının kobud şəkildə pozulması, onların işgəncələrə, alçaldıcı rəftara məruz qalmaları və digər faktlarla bağlı beynəlxalq təşkilatlara müraciətlər ünvanlanıb. Ötən il Azərbaycan ombudsmanı Ermənistanın törətdiyi müharibə cinayətləri ilə bağlı 8 bəyanat və 7 hesabat hazırlayıb, videomüraciətlər də daxil olmaqla şikayət xarakterli 15 müraciət aidiyyəti beynəlxalq təşkilatlara, müxtəlif ölkələrin ombudsmanlarına və milli insan hüquqları təsisatlarına, səfirliklərə, dini icma və konfessiyalara göndərilib.

İl ərzində ombudsmanın ünvanına daxil olan 27 min 500 müraciət qanun çərçivəsində təhlil edilib, aidiyyəti dövlət qurumları ilə əməkdaşlıq şəraitində araşdırılıb, pozulmuş hüquqların bərpasına yönəlmiş tədbirlər görülüb, təkliflər verilib. Təsisatda fəaliyyətə başlayan 916 vahid Çağrı Mərkəzi, habelə “Facebook” və “Twitter” sosial şəbəkələrinin imkanlarından istifadə edilməsi vətəndaşların müraciət etmək hüququnun xüsusilə pandemiya dövründə səmərəli təminatına şərait yaradıb.

Ombudsman təsisatının ötənildəki fəaliyyəti barədə parlamentə ətraflı məlumat verən Səbinə Əliyeva bir sıra təkliflərini də deputatların diqqətinə çatdırdı.

Məruzə dinlənildikdən sonra Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc ombudsmanın illik məruzəsinə münasibət bildirdi, təkliflərini nəzərə çatdırdı. Sonra müzakirələr başladı. Milli Məclis sədrinin birinci müavini, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli, komitə sədrləri Hicran Hüseynova, Qənirə Paşayeva, deputatlar Əli Məsimli, Fazil Mustafa, Etibar Əliyev, Tahir Kərimli, Sahib Alıyev, Erkin Qədirli, Aqiyə Naxçıvanlı, Könül Nurullayeva illik məruzəni və ombudsmanın 2020-ci ildə gördüyü işləri müsbət dəyərləndirdilər. İnsan hüquqları üzrə müvəkkilin fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə bəzi irad və təkliflər də nəzərə çatdırıldı.

Ombudsman Səbinə Əliyeva deputatları maraqlandıran sualları cavablandırdıqdan sonra məsələ səsə qoyuldu və İnsan hüquqları üzrə müvəkkilin 2020-ci ilə dair illik məruzəsi nəzərə alındı.

Fasilədən sonra plenar iclas işini davam etdirdi. “Azərbaycan Respublikası hökuməti ilə Pakistan İslam Respublikası hökuməti arasında fövqəladə halların nəticələrinin qarşısının alınması, məhdudlaşdırılması və azaldılması sahəsində əməkdaşlıq haqqında” Sazişin təsdiq edilməsinə dair qanun layihəsini təqdim edən Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov ölkələrimiz arasındakı qardaşlıq, dostluq münasibətlərindən danışdı. Qeyd etdi ki, bu sənəd Azərbaycan dövlətinin milli maraqlarına cavab verir.

Fikir mübadiləsində Azərbaycan-Pakistan münasibətlərinə toxunan Milli Məclisin sədri Sahibə Qafarova bildirdi ki, Vətən müharibəsi günlərində Pakistan parlamentinin spikeri ilə iki dəfə telefon danışığı olub və dəstəyə görə Azərbaycan parlamenti adından təşəkkürünü çatdırıb. Qarşılıqlı səfərlərlə əlaqədar sədr qeyd edib ki, bu yaxınlarda Pakistanda İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasının iclası olmalı idi. Həmin iclasa biz də dəvətli idik. Azərbaycan parlamenti böyük bir nümayəndə heyəti ilə həmin tədbirdə təmsil olunacaqdı, rəsmi səfər də o çərçivədə baş tutacaqdı. Lakin pandemiya səbəbindən bu iclas təxirə düşdü. Pandemiya bitəndən sonra ilk səfər edəcəyimiz ölkələrdən biri Pakistandır. Qarşılıqlı səfərlərimiz olacaq. Bizim dəvətimiz də onlara çatdırılıb.

Müzakirədə çıxış edən komitə sədrləri Siyavuş Novruzov, Qənirə Paşayeva, deputatlar Sevinc Fətəliyeva, Fəzail Ağamalı Pakistanın hər zaman ölkəmizin yanında olduğunu, Birinci və İkinci Qarabağ müharibələri dövründə birmənalı olaraq Azərbaycanı dəstəklədiyini vurğuladılar, dostluq və əməkdaşlıq əlaqələrinin daha da inkişaf etməsi üçün qarşılıqlı səfərlərin vacibliyini qeyd etdilər.

Səsvermə zamanı saziş təsdiq olundu.

Sonra üçüncü oxunuşda müzakirəyə çıxarılmış 3 qanun layihəsinə baxıldı. Layihələr barədə Əmək və sosial siyasət komitəsinin üzvü Vüqar Bayramov, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov və İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili məlumat verdilər.

Milli Məclis “Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında”, “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında”, həmçinin “Elektroenergetika haqqında”, “Qaz təchizatı haqqında”, “Su təchizatı və tullantı suları haqqında”, “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” və “Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında” qanunlarda dəyişiklik edilməsi barədə” qanun layihələrini üçüncü oxunuşlarda qəbul etdi.

Plenar iclasda “Məhkəmə-Hüquq Şurası haqqında” qanunda dəyişiklik edilməsi barədə məsələni Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov şərh etdi. Bildirdi ki, Azərbaycan Prezidentinin qanunvericilik təşəbbüsü qaydasında parlamentə təqdim etdiyi bu layihədə qanunun 8.2-ci maddəsində Məhkəmə-Hüquq Şurası üzvlərinin səlahiyyətlərinin yerinə yetirilməsi ilə bağlı təmsilçilik xərclərinin ödənilməsi üçün Azərbaycan Respublikası Ali Məhkəməsi hakimlərinin əmək haqlarının 25 faizi məbləğində aylıq pul təminatı nəzərdə tutulur. Təqdim edilmiş layihəyə əsasən, “əmək haqqı” sözlərinin “vəzifə maaşı” sözləri ilə əvəz edilməsi təklif olunur.

Qanun layihəsi qəbul edildi.

“Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında” qanunda dəyişiklik edilməsi barədə” qanun layihəsini parlamentə Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli təqdim etdi. Bildirdi ki, xeyli müddətdir ölkəmizdə bir sıra dövlət orqanları publik hüquqi şəxs kimi fəaliyyət göstərir. Əqli mülkiyyət sahəsində bu fəaliyyəti Əqli Mülkiyyət Agentliyi həyata keçirir. Nazirlər Kabinetinin 2020-ci ildə qəbul etdiyi qərara əsasən, publik hüquqi şəxslər xəzinə hesabı ilə yanaşı, həm də xüsusi hesab aça bilərlər. Çünki onlar bir sıra hallarda ssuda toplayırlar və digər fəaliyyətlər həyata keçirirlər. Buna görə də “Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında” qanunda “xəzinə hesabı” ifadəsi “hesabı” sözü ilə əvəz edilir.

Qanun layihəsi qəbul edildi.

Gündəlikdəki “İcra haqqında” qanunda dəyişiklik edilməsi barədə” qanun layihəsi iclasda ikinci oxunuşun prosedur qaydalarına uyğun müzakirə olundu. Deputatlar uyğunlaşdırma xarakteri daşıyan bu qanun layihəsini ikinci oxunuşda qəbul etdilər.

Plenar iclasın müzakirəsinə çıxarılmış növbəti 5 məsələ birinci oxunuşa təqdim olunmuş qanun layihələri idi.

İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini şərh edən (birinci oxunuş) Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov qeyd etdi ki, kənd təsərrüfatı sahəsində subsidiyaların verilməsində korrupsiyanın qarşısının alınması və dövlət dəstəyinin əlçatanlığının təmin edilməsi məqsədilə ölkəmizdə “Elektron kənd təsərrüfatı” informasiya sistemi yaradılıb. Məcəlləyə əlavə olunan yeni maddə də həmin məqsədə xidmət edir.

Qanun layihəsi birinci oxunuşda təsdiq edildi.

Milli Məclisin sədri Sahibə Qafarova bildirdi ki, gündəlikdəki növbəti iki məsələ- “Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında” və “Veteranlar haqqında” qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələri parlamentə bir zərfdə daxil olub və mahiyyətcə yaxın olan qanun layihələridir.

Qanun layihələri barədə Əmək və sosial siyasət komitəsinin sədr müavini Məlahət İbrahimqızı ətraflı məlumat verərək dedi ki, dövlətimizin həyata keçirdiyi sosial siyasətin təməlində Azərbaycan Prezidentinin qarşıya qoyduğu əsas vəzifələrdən biri kimi şəhid ailələrinə və qazilərə göstərilən dövlət qayğısı durur. Bu gün biz bu qayğının hər an şahidi oluruq. Adıçəkilən qanunlara təklif olunan dəyişikliklər də zamanın tələbindən irəli gəlir və qeyd olunan siyasətin məntiqi davamıdır. Belə ki, işğaldan azad edilmiş Azərbaycan ərazilərində sosial-iqtisadi, humanitar, təşkilati və digər təxirəsalınmaz məsələlərin həlli, həmçinin bu sahədə fəaliyyətin əlaqələndirilməsi məqsədilə “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının yaradılması haqqında” 24 noyabr 2020-ci il tarixli Prezident Sərəncamına uyğun olaraq yaradılmış işçi qrupunun müvafiq qərarına əsasən, şəhidlər, şəhidlərin ailə üzvləri, müharibə ilə əlaqədar əlilliyi olan şəxslər və müharibə veteranları barədə vahid informasiya bazasının yaradılması nəzərdə tutulur.

Şəhid və şəhid ailəsi statusu almış şəxslərin reyestrinin hazırlanmasında əsas məqsəd hazırkı tarixədək verilmiş və bundan sonra veriləbiləcək statuslar əsasında şəhidlər, şəhid ailə üzvləri barədə vahid informasiya bazasının yaradılması, müvafiq məlumatların toplanılması, saxlanılması və axtarışının avtomatlaşdırılmasının təmin edilməsidir. Reyestrin təşkili gələcəkdə status verilmiş şəxslərin dövlət orqanlarına müraciətləri zamanı statuslarının onlayn rejimdə müəyyənləşdirilməsi, habelə sosial təminat hüquqlarına proaktiv qaydada baxılması imkanları yaradacaq.

“Veteranlar haqqında” qanuna təklif olunan dəyişiklik də müharibə veteranlarının vahid informasiya bazasını yaratmaq məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) elektron informasiya sistemində müharibə veteranlarının reyestrini elektron formada aparmasını nəzərdə tutur.

Müzakirə zamanı komitə sədri Siyavuş Novruzov, deputatlar Tahir Kərimli, Sahib Alıyev, Aydın Hüseynov, Nigar Arpadarai, Əli Məsimli, Fəzail Ağamalı, Elnur Allahverdiyev, Aqil Abbas hər iki qanun layihəsinə müsbət münasibət bildirdilər. Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq birinci oxunuşda qəbul edildi.

Gündəlikdəki sonuncu iki məsələni də təqdim edən Məlahət İbrahimqızı mahiyyətcə yaxın olan “Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında” və Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihələrini birinci oxunuşda şərh etdi. Bildirdi ki, ölkəmizdə sosial sahədə aparılan islahatlar nəticəsində sosial sığorta, fərdi uçot və pensiya təminatı sahəsindəki funksiyaların bir-birini tamamladığı vahid dövlət pensiya təminatı sistemi formalaşdırılıb. Həmin sistemin fəaliyyəti müasir tələblər səviyyəsində təşkil olunmuş, o cümlədən hər bir sığortaolunana fərdi şəxsi hesab açılaraq ödənilən məcburi dövlət sosial sığorta haqlarının bu hesablarda fərdi uçotunun aparılması, vətəndaşların pensiya hüquqlarının dəyər ifadəsində həmin uçotun məlumatları əsasında müəyyənləşdirilməsi mexanizmi yaradılıb. Bu sahədə islahatların davamı olaraq fərdi uçot sistemində qanunvericilik bazasının təkmilləşdirilməsi və sadələşdirilməsi, eləcə də müasir dövrdə öz aktuallığını itirmiş müddəaların qanunvericilikdən çıxarılması zərurəti yaranıb.

Bildirilib ki, “Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında” qanunun bəzi maddələrində dəyişiklik edilməsi Əmək Məcəlləsində də müvafiq dəyişikliklərin edilməsi zərurətini yaradır. Vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi məqsədilə hazırlanmış dəyişiklik fərdi uçot sistemindəki müvafiq məlumatların çevik əldə edilməsini və əlavə xərclərin azaldılmasını nəzərdə tutur.

Müzakirədə deputatlar Eldar Quliyev və Etibar Əliyev rəy və təkliflərini bildirdilər. Qanun layihələri ayrı-ayrılıqda səsə qoyuldu və birinci oxunuşda qəbul edildi.

***Rəşad CƏFƏRLİ,***
***Rəşad BAXŞƏLİYEV,***
***“Azərbaycan”***

*Əvvəli 1-ci səh.*

# Azərbaycanın türk dünyasına böyük töhfəsi

Qeyd edək ki, işğal olunmuş torpaqlarımızın azad edilməsi, Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması ilə nəticələnən İkinci Qarabağ müharibəsində Türk Şurası Azərbaycana mənəvi və siyasi dəstək göstərdi. Müharibənin ilk günlərində Şuranın yaydığı bəyanatda Ermənistan-Azərbaycan münaqişəsinin Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı əsasında tezliklə həll olunmasının vacibliyi qeyd olundu. Bütövlükdə Türk Şurası müharibə günlərində Azərbaycanın yanında oldu. Müharibə günlərində Şuranın Ticarət və Sənaye Palatasının toplantısının Bakıda keçirilməsini Prezident İlham Əliyev ölkəmizə mənəvi dəstəyin göstərilməsi kimi qiymətləndirdi.

Türk Şurasının üç gün əvvəl videokonfrans formatında keçirilən qeyri-formal Zirvə görüşündə toxunulan əsas məsələlərdən biri Azərbaycanın torpaqlarını işğaldan azad etməsi oldu. Qazaxıstanın birinci Prezidenti - Elbası, Türk Şurasının fəxri sədri Nursultan Nazarbayev, Qazaxıstanın Prezidenti Kasım-Jomart Tokayev, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev, Türk Şurasının Baş katibi Bağdad Amreyev Azərbaycanı Qələbə münasibətilə təbrik etdilər.

Prezident İlham Əliyev də toplantıdakı çıxışını, əsasən, Qarabağ mövzusuna həsr etdi. Dövlət başçısı Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi ilə əlaqədar hadisələrə geniş ekskurs etdi, bu ölkənin sistemli şəkildə təxribatlar törətdiyini, azərbaycanlıların milli heysiyyatı ilə oynadığını, bu hərəkətlərin dözülməzliyini, Ermənistan baş nazirinin “Qarabağ Ermənistandır və nöqtə” bəyanatının və 2020-ci ilin yayında Ermənistanın müdafiə nazirinin yeni əraziləri işğal etmək anonslarını xatırlatdı. Ardıcıl təxribatlara cavab olaraq 2020-ci ilin sentyabrında 44 günlük müharibənin başladığını bildirdi. Ermənistanın xarici dəstək olmadan Azərbaycan torpaqlarını tutmasının və uzun illər işğalda saxlamasının mümkünsüzlüyünü, Minsk qrupunun fəaliyyətinin “sıfır effektivliyi”ni diqqətə çatdırdı. İlham Əliyev Vətən müharibəsində qardaş Türkiyənin Azərbaycana göstərdiyi güclü mənəvi və siyasi dəstəyə görə Prezident Rəcəb Tayyib Ərdoğana xüsusi təşəkkür etdi.

## Zəngəzurdan keçən kommunikasiyalar bütün türk dünyasını birləşdirəcək

2009-cu ildə Naxçıvanda türkdilli ölkələrin dövlət başçılarının Zirvə görüşündə Prezident İlham Əliyev demişdi: *“Vaxtilə Azərbaycanın tarixi torpağı, əzəli torpağı Zəngəzur bölgəsini Azərbaycandan ayırıb Ermənistana birləşdirilməsi, demək olar ki, böyük türk dünyasını coğrafi baxımdan parçaladı. Yəni türk dünyasının vahid bir ailə kimi, vahid bir qüvvə kimi fəaliyyəti onilliklər ərzində dayandırılmışdır. Ancaq biz bu gün qəbul edilmiş qərarlarla, atılmış addımlarla bu bağlantını daha da gücləndiririk”.*

Zəngəzurun Ermənistana verilməsi ilə türk dünyası arasında coğrafi parçalanma baş vermişdi. İlham Əliyev 12 il əvvəl bu sözləri təsadüfən deməmişdi. Çünki Prezident düşünülmüş və uzaqgörən siyasəti ilə Azərbaycanı böyük Qələbəyə aparırdı. İkinci Qarabağ müharibəsində böyük Qələbə ilə İlham Əliyev həm də bütün türk dövlətlərinin daha da yaxınlaşmasına xidmət edən tarixi bir missiyanı yerinə yetirdi. Ötən ilin 10 noyabrında imzalanmış üçtərəfli Bəyanatda Naxçıvanı Azərbaycanın əsas ərazisi ilə birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası ilə bağlı müddəa da yer aldı. Videokonfrans formatında Zirvə görüşündə bu məsələyə də toxunan İlham Əliyev dedi: *“Naxçıvanda keçirilmiş Zirvə görüşündə mən demişdim ki, vaxtilə Zəngəzuru Azərbaycandan alıb Ermənistana birləşdirmək türk dünyasının coğrafi parçalanması idi. Çünki əgər xəritəyə baxsaq görərik ki, sanki bizim bədənimizə xəncər saplanmışdır, türk dünyası parçalanmışdır. Qədim Azərbaycan torpağı olan Zəngəzur indi türk dünyasının birləşməsi rolunu oynayacaq. Çünki Zəngəzurdan keçən nəqliyyat, kommunikasiya, infrastruktur layihələri bütün türk dünyasını birləşdirəcək”.*

Ümumiyyətlə, Ermənistanın işğalçılıq siyasəti yalnız Azərbaycana qarşı deyil, bütün türk və müsəlman dünyasına qarşı yönəlmişdi. Çünki 30 ilə yaxın işğal dövründə Ermənistanın dağıtdığı və erməniləşdirilməsinə cəhd etdiyi bütün tarixi və dini abidələr həm də türk-müsəlman irsinin tərkib hissəsidir. Bu baxımdan Azərbaycan erməni faşizminin qarşısını alaraq türk dünyası qarşısında tarixi xidmət göstərdi, təkcə özünün deyil, bütün İslam dünyasının dəyəri olan mədəni və dini irsi müdafiə etdi.

***R.CƏFƏRLİ,***
***“Azərbaycan”***

# Azərbaycanın Baş naziri Türkiyənin ticarət naziri ilə görüşüb



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov aprelin 2-də Türkiyə Respublikasının ticarət naziri Ruhsar Pekcan ilə görüşüb.**

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan-Türkiyə iqtisadi-ticari əlaqələrinin genişləndirilməsi perspektivləri müzakirə olunub, iki ölkə arasında bütün sahələrdə qarşılıqlı faydalı əməkdaşlığın bundan sonra da uğurla inkişaf edəcəyinə əminlik ifadə olunub.

# Moskvada MDB Xarici İşlər Nazirləri Şurasının iclası keçirilib

Moskvadakı Beynəlxalq Hərbi Mərkəzdə MDB Xarici İşlər Nazirləri Şurasının (XİNŞ) iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasda Azərbaycanı xarici işlər naziri Ceyhun Bayramov təmsil edib.

İclas iştirakçıları xarici siyasi və humanitar sahələrdə əməkdaşlığın, təhlükəsizliklə bağlı qarşılıqlı fəaliyyətin daha da genişləndirilməsinə yönəlmiş sənədlərin layihələrini müzakirə ediblər.

Nümayəndə heyətlərinin rəhbərləri məhdud tərkibdə birlik formatında qarşılıqlı fəaliyyət və beynəlxalq gündəliyin aktual məsələlərinə dair fikir mübadiləsi aparıb, XİNŞ-nin növbəti iclasının tarixini və keçiriləcəyi yeri müəyyən ediblər. Həmin iclas 2021-ci il oktyabrın 14-də Minskdə, MDB Dövlət Başçıları Şurasının yubiley iclası ərəfəsində keçiriləcək.

1941-1945-ci illərin Böyük Vətən müharibəsinin başlanmasının 80 illiyi ilə əlaqədar Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrin dövlət başçılarının MDB ölkələri xalqlarına və dünya ictimaiyyətinə müraciətinin layihəsi bəyənilib.



Geniş tərkibdə keçirilən iclasda 2020-ci ildə xarici siyasət idarələri arasında tərəfdaşlığın aktivləşdirilməsinə dair fəaliyyət proqramının yerinə yetirilməsinin gedişi məsələsinə baxılıb. Qeyd edilib ki, 2020-ci ildə fəaliyyət proqramının reallaşdırılması MDB çərçivəsində çoxşaxəli əməkdaşlığın inkişafına və qarşılıqlı siyasi-diplomatik fəaliyyətin möhkəmlənməsinə kömək edib. Tərəfdaşlar sənədin bir sıra mövqeləri üzrə irəliləyişə, ən aktual mövzular üzrə XİN-lər arasındakı fəal dialoqu davam etdirməyə, aparıcı beynəlxalq məkanlarda qarşılıqlı fəaliyyət səylərini əlaqələndirməyə, əməkdaşlığın bu istiqamətində mövcud kadr potensialından daha tam istifadə etməyə nail olublar.

Xarici işlər nazirləri Birlik ölkələrinin xarici siyasət idarələri arasında qarşılıqlı əlaqələrin möhkəmlənməsi və inkişafı üçün fəaliyyət proqramının müddəalarından maksimum tam istifadə edilməsi üzrə işi davam etdirməyi qərara alıblar. XİNŞ iclasının iştirakçıları 2020-ci ildə birlik çərçivəsində çoxsəviyyəli XİN-lər arasındakı məsləhətləşmələrin nəticələrini bəyəniblər. Məsləhətləşmələrin gündəliyinə yeni mövzular daxil edilməsinin aktuallığı qeyd edilib. Həmçinin aparılmış məsləhətləşmələrdə əsas diqqətin birlik ölkələrinin maraqlarının nəzərə alınmasının səmərəli təmin edilməsinə və beynəlxalq təşkilatlarda mümkün olan birgə fəaliyyətin razılaşdırılmasına yönəldildiyi bildirilib.

Xarici siyasət idarələrinin rəhbərləri MDB İcraiyyə Komitəsinə 2022-ci il üçün MDB çərçivəsində çoxsəviyyəli XİN-lər arasındakı məsləhətləşmələr planının layihəsini müəyyən olunmuş qaydada MDB Xarici İşlər Nazirləri Şurasının iclasının müzakirəsinə təqdim etməyi tapşırıblar.

Layihələri XİNŞ tərəfindən bəyənilmiş iki sənəd baxılmaq üçün MDB Hökumət Başçıları Şurasına göndəriləcək. Həmin sənədlər geodeziya, xəritəçəkmə və Yerin məsafədən zondlaşdırılması sahəsində əməkdaşlıq və silahlı qüvvələrin zabitlərinin operativ-strateji hazırlığı sahəsində baza təşkilatının yaradılması barədədir.

İclasda birlikdə qüvvədə olan strategiyaların - bədən tərbiyəsi və idman sahəsində əməkdaşlığın, beynəlxalq gənclər əməkdaşlığının, habelə turizm sahəsində əməkdaşlığın inkişafı strategiyalarının reallaşdırılmasına dair tədbirlərin ortamüddətli planları təsdiq edilib.

# Milli Məclisin sədri Sahibə Qafarovanın Türkiyənin ticarət naziri ilə görüşü olub

Aprelin 2-də Milli Məclisin sədri Sahibə Qafarova Türkiyə Respublikasının ticarət naziri xanım Ruhsar Pekcanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, sədr Sahibə Qafarova qonaqları səmimi salamlayaraq, bu səfərin iki ölkə arasında əlaqələrin daha da dərinləşməsinə töhfə verəcəyinə inamını ifadə edib. Görüşdə Sahibə Qafarova bildirib ki, Prezident İlham Əliyevin dediyi kimi, Azərbaycanla Türkiyə arasındakı əməkdaşlığın dünya siyasi münasibətlər sistemində alternativi yoxdur. Möhkəm təməl üzərində qurulmuş bu münasibətlər xalqlarımız arasında mövcud olan əsl qardaşlıq ruhuna söykənir. Azərbaycanla Türkiyə arasında imzalanmış sənədlər əməkdaşlığımızın möhkəm hüquqi bazasını təşkil edir.

Parlamentin sədri Azərbaycanın apardığı 44 günlük müharibə dövründə Türkiyənin qardaş ölkə olaraq Azərbaycanın yanında yer almasını, ölkəmizə siyasi və mənəvi dəstək göstərməsini xüsusi qeyd edib. Bildirilib ki, biz qardaş Türkiyənin bu dəstəyini yüksək qiymətləndiririk. Türkiyə Böyük Millət Məclisində təmsil olunan 4 siyasi partiyanı təmsil edən millət vəkillərinin Azərbaycanın haqq işinə açıq dəstək verməsi ölkə ictimaiyyəti tərəfindən məmnunluqla qarşılanıb. Vətən müharibəsi dönəmində Türkiyə parlamentinin müxtəlif səviyyəli nümayəndə heyətlərinin Azərbaycana səfərləri və erməni təcavüzünə məruz qalmış bölgələrdə vəziyyətlə yerində tanış olmaları Ulu Öndər Heydər Əliyevin qeyd etdiyi kimi, "Bir millət, iki dövlət" ifadəsinin real həyatda təcəssümüdür.

Görüşdə bildirilib ki, iqtisadi sahədə də münasibətlərimiz yüksələn xətlə inkişaf etməkdədir. İki ölkə arasında ticarət dövriyyəsinin həcmi və qarşıya qoyulan hədəflər bu fikri söyləməyə əsas verir. Azərbaycanla Türkiyənin reallaşdırdığı neft, qaz və nəqliyyat layihələri ölkələrimizin bölgədəki rolunu daha da artırır. Milli Məclisin sədri Sahibə Qafarova hər iki ölkənin parlamentində geniştərkibli dostluq qruplarının fəaliyyət göstərməsinin əməkdaşlığımızın ümumi ruhuna uyğun olduğunu söyləyib. Qeyd edilib ki, deputatlarımızın müxtəlif platformalarda mütəmadi görüşləri tərəfləri maraqlandıran məsələlərin müzakirəsi baxımından çox önəmlidir.

Səmimi qəbul üçün minnətdarlığını bildirən Türkiyə Respublikasının ticarət naziri xanım Ruhsar Pekcan ölkəmizə səfərindən və burada keçirdikləri görüşlərdən məmnun qaldıqlarını söyləyib. Qonaq böyük nümayəndə heyəti ilə ölkəmizdə səfərdə olduğunu, başçılıq etdiyi sahə üzrə əlaqələrin daha da dərinləşdirilməsi üçün müvafiq danışıqlar aparıldığını deyib. Bildirilib ki, türk xalqı Azərbaycanın Vətən müharibəsində qazandığı zəfəri böyük coşqu ilə qarşılayıb.

Qeyd edilib ki, Türkiyə şirkətləri işğaldan azad olunmuş ərazilərdə bərpa işlərində yaxından iştirak etmək, Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrinə investisiyalar yatırmaq niyyətindədirlər. Türkiyə strateji müttəfiq kimi hər zaman Azərbaycanın yanındadır və bundan sonra da qardaş Azərbaycan xalqına öz dəstəyini əsirgəməyəcək.

Görüşdə çıxış edən Milli Məclisin komitə sədri, Türkiyə ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əhliman Əmiraslanov, komitə sədri Tahir Mirkişili münasibətlərimizin bu günü və gələcək inkişaf perspektivləri barədə öz fikirlərini bildiriblər.

Qəbulda Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev, deputat Mahir Abbaszadə, Türkiyənin ölkəmizdəki səfiri Erkan Özoral və digər rəsmi şəxslər iştirak ediblər.

# Ümumhəmkarlar İttifaqları Konfederasiyası Azərbaycanın təcrübəsini yüksək qiymətləndirir

**2021-ci il aprelin 2-də Ümumhəmkarlar İttifaqları Konfederasiyasının (ÜHİK) İcraiyyə Komitəsinin iclası keçirilib.**




Onlayn formatda keçirilən tədbiri ÜHİK-in sədri M. Şmakov açaraq ÜHİK-in MDB ölkələrindəki üzv təşkilatlarında Beynəlxalq Əmək Təşkilatının (BƏT) Konvensiyalarınn ratifikasiyası və bu konvensiyalara riayət olunması haqqında danışaraq üzv təşkilatların bu sahədəki fəaliyyəti ilə bağlı iştirakçıları məlumatlandırıb. Bu sahədə Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının fəaliyyətini təqdirəlayiq hesab edib və bildirib ki, BƏT-in sosialyönümlü 11 konvensiyasının ratifikasiya olunmasında bu təşkilatın rolunu xüsusi qiymətləndirmək lazımdır. Növbəti konvensiyaların da ratifikasiya olunması istiqamətində AHİK-in yüksək fəallığını qeyd edən ÜHİK sədri bu işdə Azərbaycan həmkarlar ittifaqları təşkilatına uğurlar arzulayıb.

Qeyd olunan məsələnin müzakirəsində çıxış edən AHİK-in sədri, millət vəkili S.Möhbalıyev bildirib ki, 2021-ci ilin 1 yanvar tarixinə Azərbaycan Respublikasında BƏT-in 56 konvensiyası ratifikasiya edilib. Konvensiyaların tətbiq olunması haqqında hökumətin hesabatları müntəzəm olaraq BƏT-in Cenevrədəki mənzil-qərargahına göndərilir. Ölkəmizdə beynəlxalq standartlara cavab verən milli əmək qanunvericiliyi qəbul edilib . Məlum olduğu kimi, Ümumhəmkarlar İttifaqları Konfederasiyası 2004-cü ilin aprelində üzv təşkilatlara BƏT-in 11 konvensiyasını ratifikasiya etməyi növsiyə etmişdi. 2021-ci ilin 1 yanvar tarixinə BƏT-in sosialyönümlü 11 konvensiyasından 6-sı qəbul edilib. 97, 102, 117, 108, 173 saylı konvensiyaların ratifikasiyası isə hazırlıq mərhələsindədir.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası BƏT-in konvensiyalarının və Tövsiyələrinin ölkə qanunvericiliyində tətbiq edilməsi istiqamətində planlı şəkildə iş aparır. Sosial tərəfdaşlarla birgə dünyada əmək sferasındakı vəziyyət öyrənilir, BƏT-in prioritet olan 11 konvensiyasının tətbiq olunması istiqamətində maarifçilik və təşkilati-praktiki iş aparılır.

S. Möhbalıyev qeyd edib ki, AHİK-də həmin konvensiyaların ratifikasiyası üzrə təkliflərin hazırlıq mexanizmi yaradılıb və bu işə aparıcı həmkarlar ittifaqı mütəxəssiləri cəlb olunub. Həmin mütəxəssislər tərəfindən hazırlanan və AHİK İcraiyyə Komitəsi tərəfindən təsdiq olunan təkliflər baxılmaq üçün sosial-iqtisadi məsələlər üzrə Respublika Üçtərəfli Komissiyasına göndərilir. Qeyd edilən məsələlər hər il AHİK-in İcraiyyə Komitəsinin iclasında və Baş Kollektiv Sazişin yerinə yetirilməsi üzrə komissiyanın iclasında təhlil olunur. AHİK-in 2021-ci il üçün nəzərdə tutulmuş fəaliyyətində 5 prioritet konvensiya mühüm yer tutur. Bu konvensiyaların ratifikasiyasına hazırlıq işləri haqqında ÜHİK-in İcraiyyə Komitəsinə məlumat verməyi vacib hesab edirik. Qeyd edim ki, bu sahədə ayrı-ayrı məsələlərlə bağlı işlər əsasən yekunlaşıb və 2020-2022-ci illər üçün Baş Kollektiv Saziş çərçivəsində baxılması nəzərdə tutulur.

S. Möhbalıyev nəzərə çatdırıb ki, AHİK-in gündəlik fəaliyyətində layiqli əmək prinsiplərinin həyata keçirilməsi mühüm istiqamətlərdən hesab edilir. Bu gün fəaliyyətdə olan Baş Kollektiv Sazişə eyni zamanda ratifikasiyaya hazırlanan "Sosial təminatın minimal norması haqqında" 102-ci, "Məşğulluğa kömək və işsizlikdən müdafiə haqqında" 168-ci, "Kənd təsərrüfatında əməyin təhlükəzisliyi və əmək gigiyenası haqqında" 184-cü, "Təhlükəsizlik və əməyin gigiyenasının əsasları haqqında" 187-ci konvensiyalar daxil edilib.

AHİK-in təşəbbüsü ilə Respublika Üçtərəfli Komissiyasının 2020-ci il dekabrın 23-də keçirilmiş iclasında həmçinin "Əməkçilərin sahibkarlıq fəaliyyəti zamanı hüquqlarının qorunması haqqında" 173-cü konvensiyasının ratifikasiyaya hazır olması məsələsi müzakirə olunmuş və komissiya tərəfindən bəyənilmişdir.

Çıxışının sonunda AHİK sədri qeyd edib ki, dövlət orqanlarının, əmək kollektivlərinin və həmkarlar ittifaqı təşkilatlarının iş rejiminin dəyişməsinə səbəb olmuş koronavirus infeksiyası, həmçinin 2020-ci ildə Qarabağda torpaqlarımızın işğaldan azad edilməsi ilə nəticələnən Vətən müharibəsi fəaliyyətimizdə gərgin izlər buraxmışdır. Bununla belə, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası bundan sonra da Beynəlxalq Əmək Təşkilatının əmək sahəsindəki konvensiyalarının ratifikasiyasına və tətbiqinə xüsusi diqqət ayıracaqdır.

ÜHİK-in İcraiyyə Komitəsinin iclasında gündəliyə daxil edilmiş məsələlər müzakirə edilərək müvafiq qərarlar qəbul edilb.

# Faşizmin qəhrəmanlaşdırılmasına MDB məkanında yer olmamalıdır

Aprelin 2-də Moskvada Müstəqil Dövlətlər Birliyi (MDB) ölkələrinin Xarici İşlər Nazirləri Şurasının iclası keçirilib. Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov iclasda iştirak edib.

AZƏRTAC xəbər verir ki, iclasda çıxış edən nazir tədbirin gündəliyinə uyğun mövzulara diqqəti yönəldərək, humanitar sahədə əməkdaşlığın davam etdirilməsinin bundan sonra da dövlətlərarası münasibətlərin möhkəmlənməsinə və birliyin inkişafına töhfə verəcəyini bildirib.

"Müstəqil Dövlətlər Birliyinə üzv olan dövlət başçılarının 1941-1945-ci illər Böyük Vətən müharibəsinin başlanmasının 80 illiyi ilə əlaqədar birliyə üzv dövlətlərin xalqlarına və dünya ictimaiyyətinə müraciətinin layihəsi haqqında" qərarı xüsusi vurğulayan Ceyhun Bayramov Azərbaycanın faşizm üzərində Qələbənin qazanılmasına böyük töhfəsini diqqətə çatdırıb. Qərarın qəbul olunmasının nasizm ideologiyasına və onun müxtəlif təbliğat formalarına qarşı mübarizədə böyük əhəmiyyətə malik olduğu bildirilib, bu gün də MDB məkanında nasizmin təşviq olunduğu təəssüflə qeyd edilib və bu xüsusda Ermənistanın paytaxtının mərkəzində faşist Qaregin Njdeyə abidə qoyulduğu misal kimi səsləndirilib. Nazir vurğulayıb ki, faşizmin qəhrəmanlaşdırılmasına MDB məkanında yer olmamalıdır.

Sonra nazir Azərbaycan Ordusunun uğurlu əks-hücum əməliyyatı nəticəsində Ermənistanın işğalı altında olan ərazilərinin azad edildiyini və ölkəmizin ərazi bütövlüyünün bərpa olunduğunu vurğulayıb. 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın qəbul edilməsində Rusiya Federasiyasının səyləri, xüsusilə də Prezident Vladimir Putinin fəal vasitəçiliyi yüksək qiymətləndirilib.

Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzinin fəaliyyətini yüksək qiymətləndirən xarici işlər naziri bölgədə təhlükəsizlik və əməkdaşlığın gücləndirilməsi üçün yeni formatın yaradıldığını məmnunluqla vurğulayıb.

Tədbir iştirakçılarının diqqətini işğal zamanı bütün şəhər və qəsəbələrin dəhşətli dağıntılara, vandalizm əməllərinə məruz qalmasına, dini və mədəniyyət abidələrinin qəsdən talan edilməsinə, məscidlərin donuz tövləsinə çevrilməsinə yönəldən Ceyhun Bayramov hazırda bu ərazilərin yenidən qurulması və bərpası işlərinin həyata keçirildiyini qeyd edib.

Nazir həmçinin üçtərəfli bəyanatlar çərçivəsində əldə olunan razılaşmaları yüksək qiymətləndirərək, kommunikasiyaların açılmasının bütün regionun xeyrinə olacağını və regional əməkdaşlıq üçün yeni perspektivlər açacağını diqqətə çatdırıb.

Ceyhun Bayramov vurğulayıb ki, Azərbaycan üzərinə götürdüyü öhdəliklərə tam sadiqdir və üçtərəfli Bəyanata uyğun olaraq bütün hərbi əsirləri Ermənistana qaytarıb. Nazir eyni zamanda Ermənistan tərəfinin beynəlxalq hüquq normalarına və üçtərəfli Bəyanata zidd əməllərinə diqqəti cəlb edib, o cümlədən Ermənistan hərbçilərinin Azərbaycan Respublikası ərazisinə qanunsuz daxil olmaq cəhdlərini, habelə Ermənistanın minalanmış ərazilərlə bağlı məlumatları indiyədək Azərbaycana təqdim etmədiyini bildirib.

Sonda nazir Azərbaycanın beynəlxalq ictimaiyyətin, xüsusilə də MDB-yə üzv dövlətlərdən ən yaxın tərəfdaşlarımızın işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsi və bərpası, bu ərazilərdə dinc yanaşı yaşamaq üçün müvafiq şəraitin yaradılması məsələlərində dəstəyinə ümid bəslədiyini qeyd edib.

Eyni zamanda nazir Ceyhun Bayramov gündəlikdəki digər məsələlərə toxunub.

# Azərbaycan ilə Qırğızıstan arasında ikitərəfli münasibətlərin genişləndirilməsi üzrə fikir mübadiləsi aparılıb

Aprelin 2-də Moskva şəhərində keçirilən Müstəqil Dövlətlər Birliyinin Xarici İşlər Nazirləri Şurasının iclasında iştirakı çərçivəsində Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Qırğız Respublikasının xarici işlər naziri Ruslan Kazakbayev ilə görüşüb.



XİN-in Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazirlər Azərbaycan ilə Qırğızıstan arasında ikitərəfli münasibətlərin genişləndirilməsi və dərinləşdirilməsi üzrə fikir mübadiləsi aparıblar. Əməkdaşlıq münasibətlərinin inkişafı baxımından qarşılıqlı səfərlərin həyata keçirilməsinin vacibliyini vurğuladılar. Nazirlər ikitərəfli iqtisadi münasibətlərin inkişafı perspektivlərini müzakirə edərək, bu xüsusda Azərbaycan ilə Qırğızıstan arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyasının növbəti iclasının keçirilməsinin əhəmiyyətini qeyd ediblər.

Nazir Ceyhun Bayramov həmkarına 44 günlük Vətən müharibəsinin nəticələri, bölgədə mövcud olan cari vəziyyət, o cümlədən üçtərəfli bəyanatların icrası ilə əlaqədar həyata keçirilən tədbirlər barədə məlumat verib.

Tərəflər iki ölkənin Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələrin davam etdirilməsinin əhəmiyyətini bildiriblər.

Görüşdə həmçinin Azərbaycan ilə Qırğızıstanın beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığının davam etdirilməsi və qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə edilib.

# Milli Məclisin sabiq deputatı barəsində həbs qətimkan tədbiri seçilib

Daşıdıqları vəzifə ilə bir araya sığmayan, öz qanunsuz əməlləri ilə vətəndaşların hüquqlarını pozan, qarşılıqlı etimad əsaslı məmur-vətəndaş münasibətlərinə zərər vurmaqla dövlətin nüfuzuna kölgə salan şəxslərə qarşı prokurorluq orqanları tərəfindən kompleks tədbirlər davam etdirilir.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, belə tədbirlərdən biri kimi, Azərbaycan Respublikası Milli Məclisinin III, IV və V çağırış deputatı olmuş Cəbrayılov Rafael Kamil oğlunun öz qulluq mövqeyindən istifadə edərək külli miqdarda ziyan vurmaqla dələduzluq törətməsi və digər faktlar üzrə Cinayət Məcəlləsinin müvafiq maddələri ilə baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində cinayət işi başlanmaqla ibtidai istintaqı aparılıb.

Aparılmış ibtidai istintaq zamanı Rafael Cəbrayılovun həmin vəzifədə olarkən qardaşı Cəbrayılov Rauf Kamil oğlu tərəfindən Bakı şəhər sakininə satılmış Bakı şəhəri, Binəqədi rayonunun M.Ə.Rəsulzadə küçəsində yerləşən 2 hektar torpaq sahəsinə mülkiyyət hüquqlarının dövlət qeydiyyatına alınması barədə çıxarışın əldə edilməsində kömək göstərilməsi ilə əlaqədar ona müraciət etmiş vətəndaşa bu barədə yalandan vəd verərək, həmin adla sözügedən vətəndaşdan 240 min manat məbləğində pul vəsaitini alıb, şəxsi ehtiyaclarına sərf etməsinə və bununla da vətəndaşa külli miqdarda ziyan vurmasına əsaslı şübhələr müəyyənləşdirilib.

Qeyd edilən qanunsuz hərəkətləri ilə Rafael Cəbrayılovun deputatların fəaliyyətinin tənzimlənməsi sahəsində qüvvədə olan qanunvericiliyin tələblərinə əsasən, vəzifələrini yerinə yetirməli olduğu halda öz qulluq mövqeyindən istifadə etməklə aldatma və etibardan sui-istifadə etmə yolu ilə özgə əmlakını ələ keçirməsinə dair əldə edilmiş kifayət qədər sübutlarla əsaslar müəyyən olunduğundan ona Cinayət Məcəlləsinin 178.3.2-ci (külli miqdarda ziyan vurmaqla dələduzluq) maddəsi ilə ittiham elan edilmiş və barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Hazırda Rafael Cəbrayılovun törətmiş olduğu cinayət əməllərinin tam dairəsinin, o cümlədən vətəndaşlara vurduğu ziyanın məbləğinin müəyyənləşdirilməklə zərərin ödətdirilməsi istiqamətində intensiv istintaq aparılır.

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Azərbaycan-Türkiyə işgüzar “dəyirmi masa”sı keçirilib





İqtisadiyyat Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, Türkiyənin ticarət naziri xanım Ruhsar Pekcanın rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycana səfəri çərçivəsində Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət edib, xatirəsini ehtiramla anaraq abidəsi önünə əklil qoyub.

Qonaqlar görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın məzarını da ziyarət edib, abidəsi önünə çiçək dəstələri düzüblər. Türkiyə nümayəndə heyəti həmçinin Şəhidlər xiyabanında ”Əbədi məşəl” kompleksi və ”Türk şəhidliyi” abidəsini ziyarət edib.

Sonra Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarovun və Türkiyənin ticarət naziri xanım Ruhsar Pekcanın rəhbərlik etdiyi nümayəndə heyətləri arasında hər iki ölkənin sahibkarlıq təşkilatlarının iştirakı ilə işgüzar “dəyirmi masa” keçirilib.

“Dəyirmi masa”da qarşılıqlı hörmətə, dostluğa və qardaşlığa əsaslanan Azərbaycan-Türkiyə əlaqələrinin ötən dövrdə yüksələn xətlə inkişaf etdiyi, dövlət başçılarının siyasi iradəsi və verdikləri tapşırıqlar ikitərəfli əməkdaşlığın inkişafında əsas hərəkətverici qüvvə olduğu vurğulanıb.

Mikayıl Cabbarov Türkiyənin hər zaman Azərbaycan xalqının yanında olduğunu, ölkəmizin haqlı mövqeyinə qəti və birmənalı dəstək göstərdiyini, daim sevincimizi və kədərimizi bölüşdüyünü qeyd edib. Bildirilib ki, Azərbaycan və Türkiyə arasında yüksəksəviyyəli siyasi əlaqələr iqtisadi əməkdaşlığın gücləndirilməsi üçün əlverişli şərait yaradır. İki ölkə arasında keçirilən işgüzar tədbirlər çoxşaxəli biznes əməkdaşlığını genişləndirməklə, yeni layihələrin həyata keçirilməsinə təkan verir. Bu baxımdan 2021-ci ilin fevralında Ankarada keçirilmiş biznes-forum xüsusi əhəmiyyət kəsb edir. Qeyd olunub ki, regional və beynəlxalq əhəmiyyətli nəqliyyat layihələrini uğurla həyata keçirən Azərbaycan və Türkiyə mühüm nəqliyyat-logistika mərkəzlərinə çevrilib.

İqtisadiyyat naziri Türkiyənin Azərbaycanın əsas ticarət tərəfdaşlarından olduğunu, bu ilin martından qüvvəyə minən Preferensial Ticarət Sazişinin ikitərəfli ticarət əlaqələrinin daha da genişlənməsinə imkan yaradacağını diqqətə çatdırıb. Azərbaycanın İstanbuldakı Baş Konsulluğunda təsis edilməsi planlaşdırılan Ticarət Nümayəndəliyi də qarşılıqlı ticarətin artmasına töhfə verəcək.

Bildirilib ki, Azərbaycandakı əlverişli biznes mühitindən yararlanan sənaye, tikinti, ticarət, xidmət, nəqliyyat, kənd təsərrüfatı və rabitə sahələrində fəaliyyət göstərən Türkiyə şirkətlərinin sayı artır. Hazırda Azərbaycanda qardaş ölkənin 4200-dən çox şirkəti fəaliyyət göstərir. Türkiyə Azərbaycanın qeyri-neft sektoruna ən çox investisiya yatıran ölkədir. Azərbaycanın ən çox investisiya yatırdığı ölkə də məhz qardaş Türkiyədir. Bununla belə, Azərbaycanın investisiya imkanlarının daha geniş tanıdılması məqsədilə Türkiyənin müxtəlif şəhərlərində ”Road Show” tədbirinin təşkil edilməsi planlaşdırılır.

Azərbaycan və Türkiyə arasında əməkdaşlığın inkişaf imkanları barədə fikirlərini bölüşən Mikayıl Cabbarov investisiya, sənaye, nəqliyyat-logistika, İKT, rəqəmsal ticarət, kiçik və orta sahibkarlıq, turizm və s. sahələrdə əlaqələrin inkişafı perspektivlərini qeyd edib.

İşğaldan azad olunmuş ərazilərimizin bərpası və inkişafı konsepsiyasının hazırlandığını, xarici investorlar üçün xüsusi təşviq proqramlarının nəzərdə tutulduğunu diqqətə çatdıran iqtisadiyyat naziri bu sahədə Türkiyə şirkətlərinin iştirak imkanlarının geniş olduğunu vurğulayıb.

Türkiyə Respublikasının ticarət naziri xanım Ruhsar Pekcan bütün dünyanın pandemiya səbəbindən çətin günlər yaşadığı bir dövrdə Azərbaycanın güclü iradə nümayiş etdirərək Qarabağı işğaldan azad etməsinin Türkiyədə böyük ruh yüksəkliyi və sevinclə qarşılandığını vurğulayıb. Bildirilib ki, Türkiyə şirkətləri Azərbaycanın işğaldan azad edilmiş ərazilərində həyata keçiriləcək quruculuq layihələrində iştirakda, investisiya yatırmaqda maraqlıdır. Türkiyənin ticarət naziri həmçinin qeyd edib ki, iqtisadiyyatın müxtəlif sahələrində əməkdaşlığın genişləndirilməsi imkanları böyükdür, bu potensialın reallaşdırılması üçün birgə səylərimizi daha da artıracağıq.

“Dəyirmi masa”da iqtisadiyyat nazirinin müşaviri Səməd Bəşirli, İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin rəis müavini Məmməd Abbasbəyli, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Orxan Məmmədov, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun rəhbəri vəzifəsini icra edən Yusif Abdullayev, Azərbaycan İnvestisiya Şirkətinin icraçı direktoru Ülvi Mansurov, Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin icraçı direktoru vəzifəsini icra edən Tamerlan Tağıyev, Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev, Türkiyə Palatalar və Birjalar Birliyinin prezidenti Rifat Hisarcıklıoğlu, Türkiyə-Azərbaycan Biznes Şurasının sədri Selçuk Akat və digərləri çıxışlarında Qarabağın bərpası istiqamətində görüləcək işlər, eləcə də sahibkarlıq, investisiya, ticarət və digər sahələrdə əməkdaşlığın inkişafı barədə fikirlərini bölüşüblər.

Tədbir çərçivəsində Azərbaycan Respublikası hökuməti ilə Türkiyə Respublikası hökuməti arasında Rəqəmsal Ticarət sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb. Sənədi Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və Türkiyənin ticarət naziri Ruhsar Pekcan imzalayıblar.

Tədbirdə eləcə də Türkiyə Əsnaf və Sənətkarları Konfederasiyası ilə Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası arasında Anlaşma Memorandumu da imzalanıb. Sənədi qurumların rəhbərləri Bendevi Palandökən və Məmməd Musayev imzalayıblar.

## “Şəfəq-Asiman” Azərbaycanın enerji ehtiyatlarına əlavə güc qatacaq



*Əvvəli 1-ci səh.*

Prezident İlham Əliyev “Şəfəq-Asiman”da görülən işləri yüksək dəyərləndirib: “BP şirkəti ilə SOCAR-ın əməkdaşlıq tarixi 30 ilə yaxın bir dövrü əhatə edir. Bu dövr ərzində qlobal əhəmiyyətə malik bir çox layihələr həyata keçirilib. Bu əməkdaşlığın məhsulu olan layihələrin sırasına “Azəri-Çıraq-Günəşli” yataqlar blokunun işlənməsi, Bakı-Tbilisi-Ceyhan boru kəməri, “Şahdəniz”, “Cənub qaz dəhlizi” və ona aid olan Cənubi Qafqaz, TANAP və TAP boru kəmərləri kimi nəhəng layihələr daxildir. Hazırda BP-SOCAR əməkdaşlığı strateji xarakter daşıyır. BP Azərbaycanın neft-qaz sənayesinin ən böyük xarici investorudur. Bu gün biz ənənəvi tərəfdaşımız olan BP ilə bir neçə yeni layihə üzərində çalışırıq. Bunlardan biri də “Şəfəq-Asiman” perspektiv qaz strukturudur ki, burada artıq ilk quyunun qazılması müsbət nəticə ilə başa çatıb. Xəzərin Azərbaycan sektorunda, dənizin dərin hissəsində yeni yataqda ilk qaz-kondensat təzahürü bizim təsdiq edilmiş karbohidrogen ehtiyatlarımızın artmasına və nəticə etibarilə ölkəmizin və bir çox ölkələrin enerji təhlükəsizliyinin təmin edilməsinə dəyərli töhfə verəcək. Ölkəmizin təsdiq edilmiş təbii qaz ehtiyatları “Cənub qaz dəhlizi” və onun son həlqəsi olan TAP boru kəməri üçün də əlavə resurs mənbəyi ola bilər. Bu uğur münasibətilə Azərbaycan xalqını, Azərbaycan neftçilərini, BP və SOCAR şirkətlərini təbrik edirəm”.

Xatırladaq ki, “Şəfəq-Asiman” bloku Bakıdan cənub-şərq istiqamətində təxminən 125 kilometr məsafədə yerləşir. Blok 1100 kvadratkilometrə yaxın sahəni əhatə edir və onun ərazisində suyun dərinliyi 650-800 metr arasında dəyişir. “Şəfəq-Asiman” strukturunu “Şahdəniz” yatağından 60 kilometr və Səngəçal terminalından 145 kilometr məsafə ayırır.

“Şəfəq-Asiman” strukturu 1961-ci ildə aparılmış seysmik kəşfiyyat vasitəsilə aşkar olunub. 2010-cu ilin oktyabr ayında Bakıda BP və SOCAR arasında blokun birgə kəşfiyyatı və işlənməsi üçün HPBS imzalanıb. Saziş Azərbaycan Respublikası Milli Məclisi tərəfindən 2011-ci ildə ratifikasiya edilib. Sənədə əsasən, bu şirkətlər layihədə iştirak paylarını tən yarıya bölürlər, operator BP-dir. HPBS-nin müddəti 30 il müəyyən edilib.

2012-ci ildə “Şəfəq-Asiman”da üçölçülü seysmik tədqiqat işləri yerinə yetirilib. Seysmik məlumatların interpretasiyası 2015-ci ildə tamamlanıb. Əldə edilmiş məlumatların emalı və interpretasiyası əsasında tərəfdaşlar strukturda sözügedən ilk kəşfiyyat quyusunun yerini müəyyənləşdirib və 2020-ci ildə onun qazılmasına başlayıblar.

BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz hələ qazma işlərinə başlanmazdan əvvəl bəyan etmişdi ki, bu dəniz blokunun irimiqyaslı qaz ehtiyatlarının kəşfi üçün xeyli potensialı var. Qazma proqramının təhlükəsiz və etibarlı şəkildə həyata keçirilməsini təmin etmək məqsədilə əvvəlcədən böyük hazırlıq işləri aparılıb.

Qazma işləri strukturun ehtiyatlarının dəqiqləşməsinə imkan verib. Bu, layihənin növbəti mərhələlərə uğurla qədəm qoymasına yol açır.

***Flora SADIQLI,***
***“Azərbaycan”***

## Qeyri-neft məhsullarının ixracı 11 faizdən çox artıb



**2021-ci ilin yanvar-fevral ayları ərzində Azərbaycandan ixrac ümumilikdə 2,8 milyard, qeyri-neft sektoru üzrə isə 331,3 milyon ABŞ dolları həcmində olub. Qeyri-neft sektoru üzrə ixrac 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 33,6 milyon dollar və ya 11,3 faiz artıb. Bu barədə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) “İxrac İcmalı”nın 2021-ci ilin mart sayında məlumat verib.**

İcmalda göstərilir ki, bu ilin yanvar-fevral ayları ərzində qeyri-neft sektorunda ixrac edilən malların siyahısında birinci yer pambıq mahlıcına (37,1 milyon dollar), ikinci yer qızıla (34,4 milyon dollar), üçüncü yer isə xurmaya (27,9 milyon dollar) məxsusdur. İki ay ərzində ən çox üç ölkəyə - Türkiyəyə 106,9 milyon, Rusiyaya 85,5 milyon, İsveçrəyə 35,2 milyon dollar dəyərində qeyri-neft sektoruna aid mal ixrac edilib.

İİTKM-in icmalında yalnız bu ilin fevral ayında qeyri-neft sektoru üzrə ixracın 185,2 milyon dollar olduğu göstərilib. Həmin ay ərzində qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısında birinci yerdə Türkiyə (54,1 milyon dollar), ikinci yerdə Rusiya (42,7 milyon dollar) və üçüncü yerdə İsveçrə (25,1 milyon dollar) qərar tutub. Fevralda ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında qızıl (24,7 milyon dollar) birinci, pambıq mahlıcı (22,7 milyon dollar) ikinci və elektrik enerjisi (15,7 milyon dollar) üçüncü olub.

Kənd təsərrüfatı məhsullarına gəldikdə, bu ilin ilk iki ayı ərzində meyvə-tərəvəz ixracının dəyəri 70,5 milyon, pambıq lifi - 37,4 milyon, pambıq ipliyi - 6,9 milyon, spirtli və spirtsiz içkilər - 1,9 milyon, şəkər - 4,9 milyon, bitki və heyvan mənşəli piylər və yağlar - 3,9 milyon, çay - 1,4 milyon dollar təşkil edib. Həmçinin iki ay ərzində alüminium və ondan hazırlanan məmulatların ixracının dəyərinin 27,7 milyon, kimya sənayesi məhsullarının - 6,3 milyon, qara metallar və onlardan hazırlanan məmulatların - 14,6 milyon dollara çatdığı bildirilib.

İİTKM hazırladığı icmalda ilin ilk iki ayı üzrə qeyri-dövlət ixracatçı subyektlərin reytinqi də dərc edilib. Siyahıda birinci üç yer aşağıdakı şirkətlərə məxsusdur: “MKT İstehsalat Kommersiya” MMC, “Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti”nin Azərbaycan Respublikasındakı nümayəndəliyi və “P-Aqro” MMC. Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus şirkətlərin siyahısına isə SOCAR-ın Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi başçılıq edir. Sonrakı iki yer “Socar Polymer” MMC-yə və “Azəralüminium” MMC-yə məxsusdur.

“İxrac İcmalı”nda diqqət çəkən məqamlardan biri də xidmət ixracı ilə bağlı statistik rəqəmlərin təqdim edilməsidir. 2021-ci ilin yanvar-fevral aylarında “Azərkosmos” ASC tərəfindən dünyanın 23 ölkəsinə 8,5 milyon dollar dəyərində xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac olunub. “Azərkosmos”un xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 90 faizi həcmindədir. Fevral ayında isə “Azərkosmos” dünyanın 21 ölkəsinə 6,5 milyon dollar dəyərində xidmət göstərib.

Yanvar-fevral ayları ərzində daxil olan ixrac sifarişlərinin ilk beşliyinə ABŞ, Birləşmiş Krallıq, Fransa, BƏƏ və Pakistan daxildir.

İİTKM-in icmalında turizm sahəsində rəqəmlərin o qədər də ürəkaçan olmadığı diqqət çəkir. Koronavirus pandemiyasının yaratdığı böhran nəticəsində turizm sektorunda müşahidə olunan tənəzzül cari ilin əvvəlindən də özünü aydın büruzə verməkdədir. Dövlət Sərhəd Xidmətinin məlumatına əsasən, yanvar-fevral aylarında Azərbaycana dünyanın 123 ölkəsindən cəmi 72,1 min turist gəlib. Bu rəqəm əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 5,9 dəfə azdır. Onu da qeyd etmək lazımdır ki, gələn əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin əksəriyyəti ölkəmizə qeyri-turizm məqsədilə səfər edib.

“İxrac İcmalı”nda bu ilin fevral ayı ərzində Azexport.az portalına daxil olan ixrac sifarişləri barədə də məlumat verilib. Göstərilən müddət ərzində Azexport.az portalına daxil olan ixrac sifarişlərinin dəyəri 35,3 milyon dollardır. Bu ilin ilk iki ayı ərzində Azexport.az portalına 89,2 milyon dollar dəyərində ixrac sifarişləri daxil olub.

İİTKM-in icmalında bu ilin fevralında Azexport.az portalına ən çox ixrac sifarişlərinin tütün, şəkər tozu, fındıq ləpəsi, günəbaxan yağı, biyan kökü, çay, şərab, toyuq yumurtası, meyvə şirəsi, kosmetik vasitə, mühərrik yağı, qənnadı məhsulu, pambıq, toyuq əti, zəfəran, sarımsaq və s. mallara daxil olduğu göstərilib. Məlumat üçün qeyd edək ki, 2017-ci ilin yanvar ayından 2021-ci ilin fevralın 28-dək (50 ay ərzində) Azexport.az portalına dünyanın 143 ölkəsindən daxil olan ixrac sifarişlərinin dəyəri 2 milyard 285 milyon dollardır.

***Bahadur İMANQULİYEV,***
***“Azərbaycan”***

## “OPEC+” nazirlərinin növbəti iclasının vaxtı açıqlanıb

OPEC və OPEC-ə üzv olmayan bəzi ölkələrin (“OPEC+”) Nazirlərinin Birgə Monitorinq Komitəsinin (JMMC) növbəti - 29-cu iclası aprelin 28-də keçiriləcək.

AZƏRTAC OPEC-ə istinadla xəbər verir ki, “OPEC+” nazirlərinin 16-cı toplantısı da videokonfrans formatında həmin gün təşkil olunacaq.




“OPEC+” Müştərək Texniki Komissiyasının (JTC) iclasının bir gün əvvəl keçirilməsi planlaşdırılır.

Qeyd edək ki, dünən keçirilən “OPEC+” nazirlərinin 15-ci videogörüşündə gündəlik xam neft hasilatının növbəti 3 ay ərzində tədricən 1,1 milyon barelədək artırılması ilə bağlı qərar qəbul edilib.

Xatırladaq ki, JTC və JMMC 2016-cı il dekabrın 10-da Avstriyanın paytaxtı Vyanada təşkil edilən OPEC və OPEC-ə üzv olmayan ölkələrin nazirlərinin ilk toplantısında imzalanan tarixi “Əməkdaşlıq Bəyannaməsi” çərçivəsində yaradılıb. JTC neft bazarına dair təhlillər aparan və JMMC-yə təqdim edən texniki düşüncə mərkəzidir.

## Sumqayıt Kimya Sənaye Parkının rezidenti şüşə vərəqələrin ixracına başlayıb

Sumqayıt Kimya Sənaye Parkının (SKSP) rezidenti “Azerfloat” QSC ilk dəfə olaraq Türkiyə, Rusiya və Ukraynaya ümumi həcmi 90 min kvadratmetr olan ağ şəffaf şüşə vərəqələr ixrac edib.

SKSP-dan AZƏRTAC-a bildirilib ki, ümumi investisiya dəyəri 100 milyon avro olan “Azerfloat” QSC-nin vərəqə şüşə istehsalı zavodu müxtəlif çeşiddə, yüksəkkeyfiyyətli rəngli və şəffaf şüşə vərəqələri istehsal edir.

## Tovuzun aran bölgəsində kartof əkini başa çatmaq üzrədir




Ölkədə kartof istehsalının həcminə görə Tovuz öndə gedən rayonlardandır. Hazırda rayonda kartof əkini xeyli sürətlənmişdir. Artıq aran ərazilərdə əkin başa çatmaq üzrədir. Bir azdan isə prosesə dağ kəndlərində başlanacaqdır.

Kartofun əkini texnika ilə yanaşı, əl əməyi vasitəsilə də həyata keçirilir. Son günlər havanın yağıntılı keçməsi isə fermerlərin bol məhsul götürəcəklərinə inamını artırıb. Onlar keçən ildən fərqli olaraq bu il hər hektardan 25-30 ton məhsul götürəcəklərini düşünürlər.

Qeyd edək ki, keçən il 6 min 748,7 hektarda kartof əkən rayon sakinləri 174 min 453,5 ton məhsul istehsalına nail olmuşlar. Orta hesabla hər hektardan 258,5 sentner məhsul götürülmüşdür. Hazırda rayonda kartofçuluqla məşğul olan çoxlu sayda fermer təsərrüfatı var. Onlar kartofun əkilməsindən tutmuş, çıxarılmasınadək bütün işlərin çox hissəsini texnikaların vasitəsilə həyata keçirirlər.

Rayonda ən çox kartof əkən kəndlərdən biri də Əyyubludur. Kənddə əhalinin demək olar ki, 90 faizi kartof əkir. Kartofçuluq üçün əlverişli olan əkin sahələrinin hər hektarından ildə 25-30 sentner məhsul götürən təsərrüfat sahibləri bu il daha yüksək göstəricilərə nail olacaqlarına əmindirlər.

Fərrüx Qurbanovun hər il yetişdirdiyi kartofun satışından əldə etdiyi gəlir ailəsinin dolanışığını artıqlaması ilə təmin edir. Fermer keçən il hər hektardan 250 sentner məhsul götürmüşdür. Əldə etdiyi qazanc onu razı saldığından bu il əkin sahəsini genişləndirərək 1,5 hektara çatdırmışdır.

Rayonda kartofçuluqla məşğul olanlardan biri də fermer Sakit Yəhyayevdir. Deyir ki, kartof toxumlarını Rusiyadan özü gətirir. Onun məhsuldarlığına əmin olduğu üçün həm özü istifadə edir, həm də fermerlərə satışını təşkil edir. “Anna koroleva”, “Arizona” toxumları məhsuldar olduğundan kartofun bu növlərinə üstünlük verir.

Digər fermer Elxan Sarıyev isə deyir ki, kartof əkinində əl ilə yanaşı, texnikadan da istifadə edir. Lakin toxum cücərmiş halda olduğundan əl əməyindən istifadə daha məqsədəuyğundur. Səpindən sonra isə sahənin suvarılması həyata keçiriləcək. Bu il havaların yağıntılı keçməsi fermerlərdə ruh yüksəkliyi yaradıb. Hazırda əkin sahələrində 35 işçi çalışır. Onlar kartof əkinini başa çatdırmaq üçün var qüvvələri ilə işləyirlər. İndi əkini aparılan kartofun yığımına isə təxminən dörd aydan sonra başlanacaq.

***Sabir ƏLİYEV,***
***“Azərbaycan”***

## Palçıq vulkanları ərazisinə yeni avtomobil yolu çəkilir

Dövlət başçısının tapşırığına uyğun olaraq, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi (AAYDA) tərəfindən yol infrastrukturunun daha da müasirləşdirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilir.

Bu məqsədlə palçıq vulkanları yerləşən ərazisinin turizm potensialı nəzərə alınaraq, aidiyyəti qurumlar tərəfindən xüsusi turizm konsepsiyası hazırlanıb.

Abşeron rayonunda yerləşən palçıq vulkanlarının ərazisində müasir turizm infrastrukturuna gedən avtomobil yolunun tikintisi işləri icra olunur.

Layihə çərçivəsində 3-cü texniki dərəcəyə uyğun inşa edilən, ümumi uzunluğu 21 kilometr olan yeni yolun torpaq yatağının eni 12 metr, asfalt-beton örtüyünün eni isə 8 metr təşkil edəcək. Görülən işlər çərçivəsində artıq yolun 15 kilometrlik hissəsində torpaq yatağı və yol əsası inşa edilərək asfalt-beton örtüyünün döşənməsi üçün hazır vəziyyətə gətirilib.



Başlanğıcını Bakı-Ələt-Qazax-Gürcüstan ilə dövlət sərhədi avtomobil yolunun Qobustan qəsəbəsi ərazisindən götürən yeni yolun digər hissəsində isə hazırda torpaq yatağı və yol əsasının inşası işləri davam etdirilir.

Paytaxtdan cəmi 20-25 kilometr aralıda Arbani adlı palçıq vulkanları yerləşən ərazidə salınması nəzərdə tutulan turizm kompleksinə gediş-gəlişi asanlaşdırmaq məqsədilə çəkilən yol tərtib olunmuş qrafiklə və yüksək keyfiyyətlə inşa olunur. Bunun üçün əraziyə lazımi sayda canlı qüvvə və texnika cəlb edilib.





# Vətən deyəndə...





◆ Qarabağ dirçəliş yolundadır

# Müharibə uşaqları

## İkinci Qarabağ savaşına şahidlik etmiş azyaşlı və yeniyetmələrin psixoloji durumunun yaxşılaşdırılması üçün mühüm layihə həyata keçirilir





*Əvvəli 1-ci səh.*

Bütün müharibə uşaqları kimi Fəxrinin də taleyinə bu acı qismət yazılıbmış. Müharibə dəhşətlərinin canlı şahidinə çevrilən məktəbli bir daha həmin anları yaşamaq istəmir: “Atəş səslərindən qulaq tutulurdu. Hər gün qorxulu anlar yaşayırdıq. Elə bilirdim ki, evimizə bomba düşəcək və hamımız öləcəyik. Bombalar atılmayanda, susanda belə hər an dəhşət içində olurduq. Anam deyir ki, müharibə vaxtı gecələr rahat yata bilmirmişəm. Yatağımdan durub qaçırmışam. Amma indi yavaş-yavaş o qara kabuslardan qurtuluram, qorxularım azalıb. Bunun hamısı aldığım psixoloji dəstəkdən sonra baş verib”.





### 2200-dən çox uşağa ilkin psixoloji yardım işi təşkil olunub

Müharibə uşaqlarının hamısı bir-birinə oxşayır - taleləri, nisgilləri, qarşılaşdıqları dəhşətlər, gözlərindəki qəhər anı... Bu, onların taleyinə yazılmış alın yazısıdır.

Ağdamın Ayaq Qərvənd kəndinin sakini olan Fəxri Səfərov da onlardan biridir. İkinci Qarabağ müharibəsi zamanı yaşadığı mənzərə, eşitdiyi vahiməli, dəhşətli partlayış səsləri onun da psixoloji durumuna təsirsiz ötüşməyib. Lakin bu gün Fəxrinin gözlərində o qorxunun, təlaşın əlamətləri o qədər də hiss olunmur. Dediyinə görə, bu, müharibədən sonra onlara göstərilən psixoloji dəstək sayəsində baş verib. Bu tədbirlər təkcə onun yox, kəndlərində çox uşağın psixoloji durumuna müsbət təsiri göstərib.

Bu tədbirlər müharibə zamanı cəbhə zonasına yaxın ərazilərdə yaşayan, eləcə də atəşə tutulan digər şəhər və rayonlarda qalan uşaqlara aid “Fövqəladə hallarda uşaq müdafiəsi” layihəsi çərçivəsində reallaşır. Ağdama səfərimizin məqsədi də, bu layihə çərçivəsində həyata keçirilən tədbirlərlə tanış olmaq idi.

Ayaq Qərvənd kəndi tam orta məktəbinin həyətində “ASAN könüllüləri”nin müşayiəti ilə bir qrup məktəbli toplarla əyləncəli oyunlar nümayiş etdirirdilər. Üzlərindən gülüş və sevinc hissləri duyulurdu.

Layihə ilə bağlı məlumat verən Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Könüllülərlə iş sektorunun müdiri Sahil Məmmədli bildirdi ki, “Fövqəladə hallarda uşaq müdafiəsi” layihəsi “ASAN Könüllüləri” Təşkilatı və BMT-nin Uşaq Fondunun (UNICEF) Azərbaycan nümayəndəliyinin birgə təşkilatçılığı ilə həyata keçirilir. Layihə müharibədən zərərçəkmiş ərazilərdə yaşayan uşaqlara “ASAN” könüllüləri tərəfindən əlavə dəstək fəaliyyətləri, UNICEF-in Azərbaycan nümayəndəliyinin fövqəladə hallarda uşaqlar üçün nəzərdə tutulmuş oyun proqramı və müvafiq oyuncaq dəstləri əsasında peşəkar psixoloqların müşayiəti ilə onların asudə vaxtlarını səmərəli keçirmələri məqsədilə təşkil edilir.

Layihə silahlı münaqişə zamanı narahatlıq və qorxu keçirən uşaqlara psixoloji və psixo-sosial dəstəyin göstərilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Layihə əsasən Gəncə şəhəri, Ağdam, Goranboy və Tərtər rayonlarının ən çox zərərçəkmiş ərazilərində yaşayan ailələri əhatə edir. O cümlədən, şəhid hərbçilərin və həlak olan mülki şəxslərin ailələrinin övladlarında travmatik və ya stresli hadisə yaşamasından sonra müşahidə olunan simptomların kəskinliyinin qiymətləndirilməsi və psixo-sosial reabilitasiya işinə 2020-ci ilin noyabr ayından başlanılıb.

Təşkilatçılar tərəfindən layihəyə cəlb olunmuş peşəkar psixoloq və sosial işçilər üçün beynəlxalq təcrübənin tədris olunması məqsədilə xüsusi proqram hazırlanıb, o cümlədən travma sonrası psixoloji vəziyyətin müəyyənləşdirilməsi, kədər, itki, hüzünlə bağlı uşaqlarda güclü reaksiyanın riskləri ilə bağlı təlimatlar üzrə metodiki kurslar təşkil olunub. Bu günə kimi layihə çərçivəsində qeyd olunan ərazilərdə yaşayan 1200-dən çox ailə ziyarət edilib və 2200-dən çox uşağa ilkin psixoloji yardım göstərilib. İlkin psixoloji yardım göstərilmiş uşaqların 40 faizinə ehtiyacı üzrə əlavə psixoloji müdaxilə işləri həyata keçirilir və bu fəaliyyətlərin 2021-ci ilin aprel ayınadək davam etdirilməsi nəzərdə tutulub.

26 “ASAN” könüllüsü isə UNICEF-in fövqəladə hallarda uşaqlar üçün nəzərdə tutulan istirahət və əyləncə fəaliyyətləri üzrə təlim keçib və Bərdə, Ağcabədi, Ağdam, Tərtər, Gəncə və Goranboy şəhərlərində 2500-dən çox uşağın iştirakı ilə tədbirlər reallaşdırılıb.



“Atəş səslərindən qulaq tutulurdu. Hər gün qorxulu anlar yaşayırdıq. Elə bilirdim ki, evimizə bomba düşəcək və hamımız öləcəyik. Bombalar atılmayanda, susanda belə hər an dəhşət içində olurduq. Anam deyir ki, müharibə vaxtı gecələr rahat yata bilmirmişəm. Yatağımdan durub qaçırmışam. Amma indi yavaş-yavaş o qara kabuslardan qurtuluram, qorxularım azalıb. Bunun hamısı aldığım psixoloji dəstəkdən sonra baş verib”.

### Müharibə dəhşətləri: silinməz izlər və “basdırılmış qorxular”...

Layihəyə cəlb olunmuş psixoloqlardan Ramin Allahverdiyev və Orxan Oruczadə ilə söhbət zamanı bəlli oldu ki, mütəxəssislər fərdi şəkildə evlərə baş çəkib müharibə zamanı travma almış uşaqları müəyyənləşdirirlər. Sonra isə uşaqlarda müşahidə olunan travmanın şiddətinə uyğun olaraq onları qrup və ya fərdi terapiyaya yönləndirib yaranan psixoloji problemi aradan qaldırmağa çalışırlar. Psixoloqlar deyirlər ki, müharibə əsasən uşaqlarda qorxu hissi, yuxu və iştah pozuntusu, müxtəlif narahatçılıqlar yaradıb.

Cəbhə bölgəsində müharibədən təsirlənmiş uşaqların psixoloji durumlarının sabitləşdirilməsi istiqamətində çalışan psixoloqlar deyirlər ki, birbaşa müharibənin içində olan, savaş dəhşətlərini görən uşaqların yaşadıqları travmalar gələcək həyatlarına təsir göstərə bilir. Amma bu cür layihələrin reallaşdırılması gələcəyimizin təminatçısı sayılan uşaqların daha psixosağlam, cəmiyyətimiz üçün isə daha faydalı insan kimi yetişməsinə kömək göstərir.

Psixoloq Orxan Oruczadə deyir ki, uşaqlar müharibəni böyüklər kimi dərk etmədikləri üçün həyatlarını qorxu və özlərinimüdafiə instikti üzərində qururlar. Eşitdikləri partlayışlar, vahiməli səslər, qanlı hadisələr onların psixikasına hansısa iz salır. Müharibdən sonra uşaqlarda ən çox müşahidə edilən hallar isə daha çox “basdırılmış qorxular”dır. Bu, onlarla fərdi söhbətlər zaman aşkarlanıb: “Uşaqlarla söhbət edərkən onlar adətən, Azərbaycan əsgərinin qələbəsindən, hərbçilərimizi, tanklarımızı görərkən sevindiklərindən danışsalar da hiss olunurdu ki, qorxu hissləri də var. Bu da “basdırılmış qorxu” hissləridir. Bu hisslər uşaqlarda yuxu pozuntusu, qarabasmalar, ünsiyyət çətinlikləri yaradır. Biz də çalışırıq ki, uşaqların bu hissləri aradan qalxsın. Müharibənin onlara görtərdiyi təsirlər minimallaşsın. Ona görə də onların bu qorxudan azad olmaları üçün seanslar, əyləncəli proqramlar təşkil edirik. Bu işdə bizimlə barabər “ASAN könüllüləri” uşaqlara böyük dəstək olurlar”.

Layihəyə cəlb olunan uşaqların əvvəlki və hazırkı durumlarını qiymətləndirən Orxan Oruczadənin sözlərinə görə, 44 günlük Vətən müharibəsindəki Şanlı qələbəmiz uşaqların yaşadıqları və gələcəkdə yaşaya biləcəkləri problemlərin böyük bir hissəsinə müsbət təsir göstərib. Çünki bu uşaqlar 1990-cı illərin uşaqlarından fərqli olaraq qələbə dövrünün, qalib dövlətin uşaqlarıdırlar. Bu da hardasa, onların psixoloji vəziyyətlərinə müsbət təsir göstərir: “Əvvəlki dövrlərdə uşaqlara hər hansısa rəsm çəkməyi xahiş edəndə, adətən, tank şəkili, yanan hərbi texnika, qan izləri, göy üzünü almış qara buludlar çəkirdilər. İndi isə əksər uşaq əsgər şəkili, üzərində bayraq dalğalanan evlər, günəşli səma, güllü-çüçəkli həyət şəkilləri çəkirlər. Bu da onların artıq psixikasında müəyyən müsbət irəliləyişlərin olduğunu göstərir”.

### Müsbət irəliləyişlər var

Layihənin həyata keçirilməsi məqsədlərini dəyərləndirən UNICEF-in Azərbaycan nümayəndəliyinin əməkdaşı Vüqar Salmanov isə deyir ki, “Fövqəladə hallarda uşaq müdafiəsi” layihəsi UNICEF-in qlobal olaraq uşaq müdafisəi proqramının əsas hissələrindən birini təşkil edir. Burada əsas məqsəd müharibədən, fövqəladə hallardan zərərçəkmiş uşaqların psixoloji durumunun yaxşılaşdırılması, adapdasiyasının dəstəklənməsidir: “Bu proqram uşaqların psixologiyasına müsbət təsir göstərir. Çünki adətən, müharibə vəziyyətində yaşayan uşaqlarda psixoloji gərginliklər yaşanır. Bu hallara da vaxtında müdaxilə etmək lazımdır ki, uşağın daha sonra emosional-psixoloji sağlamlığı, təhsil alması üçün problemlər yaşanmasın. Çox təəssüf ki, bir çox cəbhəyanı rayonlarımızda uşaqlar müharibədən zərər çəkiblər, psixoloji travmalar alıblar. Bu gün həyata keçirilən layihə isə uşaqlara çox böyük kömək, dəstək verir və sevindirici haldır ki, artıq psixoloji travma alan bir çox uşaqda müsbət irəliləyişlər var. Həm peşəkar psixoloqların uşaqlarla ünsiyyəti, həm də “ASAN könüllüləri”-nin təşkil etdiyi əyləncəli proqramlar sayəsində uşaqlar stresdən çıxır və özlərini xoşbəxt hiss edirlər”.

Vüqar Salmanovun sözlərinə görə, daha çox travma almış uşaqla ilkin psixoloji yardım proqramı çərçivəsində bir neçə dəfə fərdi məşğələlər aparılır. Əgər hiss olunsa ki, uşağın travması daha dərindir, o zaman həmin uşaq intensiv məşğələyə cəlb edilir. Təbii ki, bir müddət sonra bunun müsbət nəticəsi özünü büruzə verir.

*Fəxri Səfərovun durumu da bir daha deyilənləri təsdiqləyir. Gündüzlər özünə qapılan, gecələr qorxusundan yata bilməyən bir uşağın bu gün sinif yoldaşları ilə şən əhvali-ruhiyyədə əylənməsi göstərir ki, layihə çərçivəsində reallaşdırılan proqramlar uşaqların psixoloji durumuna çox müsbət təsir göstərməkdədir. Ona görə layihə silahlı münaqişə zamanı narahatlıq və qorxu keçirən uşaqlara psixoloji və psixo-sosial dəstəyin göstərilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Həm “ASAN” könüllülərinin, həm də layihəyə cəlb edilən psixoloqların böyük əməyi sayəsində müharibə dəhşətlərini yaşamış uşaqların psixoloji durumunun yaxşılaşdırılması çox yüksək dəyərləndirilməlidir.*

***Rəşad BAXŞƏLİYEV,***
***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***

# Zəfərin ilk müjdəsi

## Azərbaycan əsgərinin “Aprel dərsləri”

Tarixin döyüş və zəfər salnaməli səhifələri az olmayıb. Müharibənin yazılmış və yazılmamış qanunları var.



Əsas hədəfə - strategiyaya nail olmaq üçün döyüşlərin müəyyən məqamında taktiki gedişlər dəyişilir. Müharibəyə ciddi hazırlıq isə döyüşlər vaxtı özünü göstərir: hər addımda ya məğlubiyyət, ya da qələbə əzmi hiss edilir.

Ermənistanın 1988-ci ildən Azərbaycana qarşı qeyri-qanuni ərazi iddiaları ilə bağlı başladığı elan olunmamış müharibə xalqımıza mənəvi, yenicə müstəqilliyini bərpa etmiş dövlətimizə arxadan vurulan zərbə oldu. Xalq o ağır günlərdə Ulu Öndər Heydər Əliyevi heç də təsadüfi yerə köməyə çağırmırdı. Ümummilli Liderin xalqın tələbi ilə gəlişi vəziyyəti dəyişdi. Cəbhənin Füzuli istiqamətində gedən ağır döyüşlər zamanı hər qarış Vətən torpağının azad edilməsi uğrunda ölüm-dirim savaşına atılan, dövlətinə, xüsusən də Ulu Öndərin siyasətinə güvənən Azərbaycan əsgərinin əks-hücuma keçməsi həlledici rol oynadı. Həmin istiqamətdə ordumuz düşmənə “öz yerini göstərdi” - xeyli ərazi, Horadiz də daxil olmaqla düşmən əsarətindən xilas edildi. Bu hücuma tab gətirməyən Ermənistanı atəşkəs elan etməyə çağırdı. 1994-cü ildən atəşkəs elan olundu. Buna baxmayaraq, riyakar Ermənistan özünün təcavüzkar və işğalçılıq siyasətinə son qoymadı, hər gün ön cəbhədə atəşkəs rejimini pozaraq, hətta dinc əhalimizə - uşaqlara, qoca və yaşlılara atəş açmaqdan çəkinmədi. Görünür, “Aprel zəfəri” üçün “burunları gicişirdi”.

Erməni təcavüzkarlarının növbəti atəşkəs rejimini pozmaq cəhdi 2016-cı il aprel ayının 1-dən 2-nə keçən gecə baş verdi. Gün ərzində Azərbaycanın cəbhəboyu mövqeləri və yaşayış məntəqələri erməni silahlı qüvvələri tərəfindən güclü artilleriya atəşinə məruz qaldı. Nəticədə 2 dinc sakin öldü, 10 nəfər yaralandı, infrastruktur obyektləri zədələndi, evlər dağıdıldı, əhalinin şəxsi təsərrüfatına və əmlakına xeyli ziyan dəydi. Bu hücumun qarşısının alınması, mülki əhalinin təhlükəsizliyinin qorunması məqsədilə Azərbaycan Silahlı Qüvvələrinin komandanlığı tərəfindən Ağdərə-Tərtər-Ağdam və Xocavənd-Füzuli istiqamətində təxirəsalınmaz cavab tədbirləri həyata keçirildi. Goranboy rayonuna və Naftalan şəhərinə təhlükə yarada biləcək Talış kəndi ətrafındakı yüksəkliklər, Seysulan məntəqəsi və Füzuli rayonu istiqamətində yerləşən “Lələtəpə” adlandırılan yüksəklik düşməndən azad edildi. Döyüşlər nəticəsində Azərbaycan Silahlı Qüvvələri Ağdərə-Madagiz istiqamətində yolların nəzarətdə saxlanılmasını təmin etdi.

Hərbi əməliyyatlar zamanı ermənilərə məxsus 30 tank, 15-dək artilleriya qurğusu və möhkəmləndirilmiş mühəndis-texniki qurğuları məhv edildi, 320 döyüşçüsü öldürüldü, 500-dən artıq erməni əsgəri isə ağır yaralandı.

Azərbaycan Ordusunun həyata keçirdiyi uğurlu əks-hücum hərbi əməliyyatı nəticəsində erməni işğalından azad edilmiş Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində əhalinin təhlükəsiz yaşaması mümkünləşdi. Tarixən burada yaşamış dinc əhalinin öz doğma yurdlarına qayıtması üçün Azərbaycan Silahlı Qüvvələrinin tam nəzarətinə keçmiş həmin ərazilərdə əsaslı yenidənqurma işləri görüldü. Bu məqsədlə dövlət başçısı İlham Əliyev 24 yanvar 2017-ci il tarixində “İşğaldan azad edilmiş Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin bərpası ilə bağlı tədbirlər haqqında” sərəncam imzaladı. Sərəncama əsasən, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin bərpası ilə bağlı görüləcək işlər çərçivəsində birinci mərhələdə 50 fərdi yaşayış evinin, məktəb binasının və müvafiq infrastrukturun tikintisi üçün Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə ilkin olaraq 4 milyon manat ayrıldı. Beləliklə, Cocuq Mərcanlı böyük qayıdışın başlanğıcını qoydu.

Əslində bu döyüşlər Azərbaycanın öz torpaqlarını işğalçı qoşunlardan təmizləmək qüdrətində olduğunu sübuta yetirdi. Hadisələr bir daha təsdiqlədi ki, işğalçıya yerini göstərmək üçün ən yaxşı təsir vasitəsi gücdür. Həmin döyüşlərdən sonra Ermənistan silahlı qüvvələrində çaxnaşma yarandı. Müdafiə naziri Seyran Ohanyan tutduğu vəzifədən azad edildi, işğalçı orduya rəhbərlik edən şəxslərin xeyli hissəsi işdən qovuldu. Bu hadisə işğalçı ordu və onun havadarları barəsində yaradılan mifi dağıtdı. Nəhayət, Azərbaycanın Dağlıq Qarabağ və ətraf bölgələrini işğal altında saxlayan Ermənistanın əsl mahiyyəti üzə çıxdı.

Aprel zəfəri Azərbaycan ictimaiyyətində geniş rezonans doğurdu. Hər kəs bu qələbənin əldə olunmasına sevinməklə yanaşı, onun təbliğinə də ciddi ehtiyac duydu. Bu, böyük Qələbənin ən mühüm şərtlərindən biri idi. 24 il sonra erməni faşistlərindən alınan o torpaqlara ayaq basmaq şərəf idi! O torpaqlarda Xocalıda şəhid olmuş analarımızın, bacılarımızın səsləri daşlaşıb qalmışdı... 24 il sonra ermənilərə böyük bir zərbə vurulmuşdu! Ermənistan tərəfi yüzlərlə itki vermişdi. 4 gün davam edən döyüşlərdə Azərbaycan tərəfi gücünü göstərmişdi. Ermənistanı qorxu bürümüşdü. Çünki Azərbaycanın mübariz ruhlu insanları ayağa qalxmışdı. Bütün gənclər küçələrə axışmışdı. Aprel döyüşləri sübut etdi ki, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə məhəl qoymayan Ermənistanı Azərbaycan hərbi yolla cəzalandıra, işğalçı siyasətdən çəkindirə bilər. Torpaqlarını qanı bahasına da olsa geri qaytarmaq gücünə malikdir!

Aprel döyüşləri tariximizin şanlı səhifəsidir. Bunu Ali Baş Komandan İlham Əliyev öz çıxışında vurğulamışdır: “Aprel döyüşləri bizim böyük tarixi qələbəmizdir, müasir tariximizdə ən uğurlu hərbi əməliyyatlardan biridir. Vaxtilə işğal edilmiş torpaqlarda bu gün Azərbaycan bayrağı dalğalanır. Döyüşlər zamanı hərbçilərimiz peşəkarlıq, qəhrəmanlıq göstərmişlər. Bir daha göstərmişlər ki, Azərbaycan əsgəri, zabiti həm peşəkardır, həm Vətənə bağlıdır, həm də istənilən anda öz vəzifə borcunu yerinə yetirməyə hazırdır”.

***Məhəmməd NƏRİMANOĞLU,***
***“Azərbaycan”***

# İqor KOROTÇENKO: “Aprel hadisələri Qarabağ müharibəsinin sona çatması ilə nəticələnən böyük dəyişikliklərin müjdəçisi oldu”

“Qarabağ uğrunda Aprel döyüşləri işğal edilmiş ərazilərin azad olunması məsələsinin həllində Azərbaycan Silahlı Qüvvələrinin artan imkanlarını nümayiş etdirdi”.

AZƏRTAC xəbər verir ki, “Nasionalnaya oborona” jurnalının baş redaktoru İqor Korotçenko bu sözləri “Vestnik Kavkaza” informasiya agentliyinə müsahibəsində deyib.

Xatırladaq ki, 2016-cı il aprel ayının əvvəlində Qarabağda şiddətli döyüşlər gedib və bu döyüşlər tarixə Aprel müharibəsi kimi düşüb.

Ekspert deyib: “Hərbi əməliyyatlar yetərincə qısa müddətdə dayandırıldı, lakin Aprel döyüşlərinin ilk uğuru sonradan artıq üstünlük təşkil edən bu meyilləri ifadə etdi: erməni ordusu strateji təşəbbüsü itirir, işğal etdiyi əraziləri əldə saxlaya bilmir, Azərbaycan Silahlı Qüvvələri isə döyüş təchizatı, yüksək mənəvi ruh və motivasiya sayəsində irəli getməyə hazırdır”.

Onun fikrincə, Aprel hadisələri 2020-ci ildə baş verən böyük dəyişikliklərin müjdəçisi oldu və bu dəyişikliklərin yekunu Qarabağ müharibəsinin sona çatması, erməni silahlı qüvvələrinin kapitulyasiyası və işğal edilmiş Azərbaycan ərazilərinin azad olunması ilə nəticələndi. 2016-cı il Aprel döyüşlərini təhlil edərək münaqişə zonasında vəziyyətin nə dərəcədə dəyişməsi barədə, həmçinin əgər Ermənistan sülh danışıqlarını uzatmaqda və bu danışıqların imitasiyası ilə məşğul olmaqda davam edərsə, o halda nələr baş verəcəyi haqda mühakimə yürütmək olardı.

“Nasionalnaya oborona” jurnalının baş redaktoru deyib: “Mənim fikrimcə, Azərbaycan 2016-cı il Aprel döyüşlərinin yekunlarına görə, xüsusi əməliyyatların gücünün, kəşfiyyat və zərbə növlü pilotsuz uçan aparatlardan istifadənin rolunun artırılmasının vacibliyi barədə düzgün nəticə çıxarmışdı. Bundan əlavə, zənnimcə, Aprel döyüşləri əvvəlki yanaşmaların köhnəlmiş olduğunu göstərdi. O vaxta qədər belə hesab olunurdu ki, qoşunların təmas xəttində işğalçı qüvvələrin mühəndis istehkamları dəfedilməzdir. Lakin məlum oldu ki, əslində yeni taktiki yollardan və hərbi əməliyyatların aparılmasının yeni üsullarından istifadə etməklə onların öhdəsindən gəlmək mümkündür”.

Ekspert qeyd edib ki, Azərbaycan öz ərazilərinin azad edilməsində daha irəli gedə bilərdi, lakin o vaxt ən əvvəl Qərb ölkələri tərəfindən Azərbaycan Ordusunun irəliləməsini dayandırmaqdan ötrü misligörünməmiş səy göstərilirdi.

İqor Korotçenko sonda deyib: “İkinci Qarabağ müharibəsi zamanı Azərbaycanı əzmək üçün kənardan göstərilən bütün cəhdlər səmərəsiz oldu. Yəni Azərbaycan siyasi baxımdan da bundan müəyyən dərs götürdü və 2020-ci ilin payızında hərbi kampaniyanın əsas məsələləri həll edilənədək ona təzyiq göstərilməsinə imkan vermədi”.

## ŞƏHİDLƏR ölməz, VƏTƏN bölünməz!

# Mürşüd dastanı

**1994-cü il, şaxtanın iliklərə işlədiyi yanvar ayının 24-cü günüydü. Ətrafda qulaqbatırıcı sükut hökm sürürdü və sanki təbiət də az sonra yaşanacaq dəhşəti anlayaraq, fırtınadan duyuq düşərək bir anlıq susmuşdu. Ağappaq qara bürünmüş meşənin bəmbəyaz mənzərəsini isə yalnız yarpaqsız ağacların qara siluetləriydi pozan...**
**Havanın qaş-qabağından günün hansı vaxtı olduğunu təyin etmək mümkün deyildi, amma günortadan çox keçdiyi, yavaş-yavaş toranın qarışdığı hiss olunurdu. Qarşıda isə onları daha bir mürəkkəb tapşırıq gözləyirdi, Kəlbəcərin Qanlıkənd kəndi istiqamətində düşməni məhv etməli idilər...**



Ürəyindən keçirdi ki, nə yaxşı olardı tezliklə bütün kəlbəcərlilər builki Novruzu doğma torpaqlarında qeyd edəydilər... Bir ilə yaxın idi ki, el-obası, ailəsi acınacaqlı məcburi köçkünlük həyatı keçirir, dözülməz şəraitlərdə yaşamağa çalışırdılar...

"Eh, heç neçə vaxtdır evdəkiləri də görmürəm. Gərək budəfəki tapşırığı yerinə yetirəndən sonra mütləq onlara baş çəkim... Yaman darıxmışam uşaqlardan ötrü..." deyə bir anlıq düşündü...

Amma heç ağlına da gətirməzdi ki, bu görüş heç zaman olmayacaq, bir daha övladlarını görə bilməyəcək, ömrü boyu onların qulağını səsdə, gözünü yolda qoyacaq...

### Kəlbəcərə yürüş, Murovdağın fəthi, Qanlıkənddə qırılan ömür və bir cüt sahibsiz mayor poqonu...

Daha hər açılan qapının arxasında atasını axtaran üç körpənin kədərdən kölgə düşmüş çöhrəsinə, göz yaşından cığır düşmüş üzlərinə, qəmgin-qəmgin baxan gözlərinə ağ-qara şəkillərdən gülümsəyərək boylanacaq, onları ovutmağa, bu balaca ürəkləri təsəlli etməyə çalışacaq...

Hələliksə, Mürşüd Məmmədovu yaşanacaq bu məşum zamandan qısa zaman dilimi ayırırdı...

Beynində çək-çevir etdiyi bu düşüncələrlə ətrafı bir daha diqqətlə nəzərdən keçirməyə başladı. Elə bu zaman döyüşçü sövq-təbii nə isə təhlükə olduğunu hiss etdi. Halbuki kəşfiyyat məlumatlarında ərazidə düşmən qüvvələrinin olmaması barədə məlumat verilmişdi. Amma döyüşçü yoldaşları da durbinlə baxdıqda çox da uzaqda olmayan düşmən əsgərlərini gördülər. Hər şey aydın idi, mühasirəyə düşmüşdülər və nə olursa-olsun onu yararaq qarşılarındakı döyüş tapşırığını yerinə yetirməli idilər...

Kapitan avtomatını götürərək bir neçə zabit və əsgərlə birlikdə qorxmadan düşmən döyüşçülərinin mövqe tutduqları istiqamətə doğru irəliləməyə başladı...

Meşədə talaya çatmağa az qalmış isə sanki yer də, göy də birlikdə qəzəbləndi. Qəfildən qalxan çovğunun uğultusu ilə açılan ölüm atəşlərinin səsi bir-birinə qarışdı. Şiddətli atışma başladı. Mürşüd və yanındakı döyüş yoldaşları düşmənin əl qumbaralarının, avtomat və pulemyotlarının atəşi altında cəsarətlə mübarizə aparmağa başladılar. O, mövqelərinin açıqda olmasına, hər an ölümlə üz-üzə olmalarına baxmayaraq, sərrast atəşlə bir-bir düşməni dənləyir, döyüşçü yoldaşlarının həyatını qurtarmaq üçün sinəsini onlara sipər edirdi. Və beləcə Kəlbəcərin cəsur oğlu yavaş-yavaş mühasirə halqasını yarmağa başlayır, amma özü də fərqində olmadan anba-an şəhidlik məqamına yaxınlaşırdı...

### Kaş sinəsindən bu dəfə də namərd düşmənin gülləsi yayınaydı...

O son döyüşdən, 1994-cü ilin 24 yanvarından, Vətəni uğrunda canını qurban verərək şəhadət məqamına yetişən mayor Mürşüd Məmmədovun yoxluğundan çox keçib, düz 27 il...

Amma doğmalarına, əzizlərinə, elinə-obasına yaşatdığı ağrı-acı elə ilk gündəki kimi təzədir...

Elə ona görə də bilirdim ki, yaman çətin, yaman ağrı-acılı olacaq bu yazını yazmaq. Asan deyil, zamanla üzəri qaysaq bağlayan yaralar qanayacaq, ağrılı günlər ürəklərdə yenidən baş qaldıracaq, illərdir cid-cəhdlə unutmağa çalışılan o əzablı anlar yenə də peyda olacaq, heyifsilənəcək, "kaş ki" deyəcəkdik...

Deyəcəkdik ki, "kaş Qanlıkənddə yaşanan o son döyüş heç olmayaydı..."

Kaş doğma Kəlbəcəri uğrunda qarboran, şaxta-sazaq demədən döyüşə yollanan əfsanəvi "Kəlbəcər taboru"nun cəsur savaşçısı Mürşüd Məmmədovun sinəsindən bu dəfə də namərd düşmənin gülləsi yayınaydı...

Heyhat...

### Vətən uğrunda qələmini silaha dəyişdi

Kəlbəcər torpağının boya-başa çatdırdığı qədd-qamətli, cüssəli igid oğullarından biri idi Mürşüd Məmmədov. 1959-cu il noyabr ayının 29-da Sınıqkilsə (indi Hacıkənd) kəndində Seyid Ağa kişinin ailəsində dünyaya göz açmışdı. Orta məktəbi əla qiymətlərlə bitirdikdən sonra hərbi xidmətə getmiş, Krasnoyarsk Vilayətində əsgəri xidmətdə olmuşdu. 1985-ci ildə isə Azərbaycan Dövlət Pedaqoji İnstitutunu bitirərək Kəlbəcər şəhər 3 saylı orta məktəbində hərbi müəllim kimi fəaliyyətə başlamışdı. Həmin illərdən ermənilərin Qarabağa, doğma torpaqlarımıza qarşı haqsız iddialarına qarşı barışmaz münasibətdə olan vətənpərvər müəllim, 1992-ci ildən könüllü olaraq döyüşlərə yollanmış və qələmini silaha dəyişmişdi. O zaman Mürşüd müəllimin hərbi peşəkarlığı nəzərə alınaraq Kəlbəcərdəki "Söyüdlü" keşikçi məntəqəsinin bölük komandirliyi ona tapşırılmışdı. O, döyüşçü yoldaşları ilə birlikdə gecə-gündüz doğma Kəlbəcərin sərhədlərini mərdliklə qoruyaraq, dəfələrlə rayona hücum etmək istəyən düşmənin burnunu ovub yerinə otuzdurmuşdu.

Mürşüd Məmmədov Kəlbəcər Ərazi Müdafiə Taborunun - "Kəlbəcər taboru"nun tərkibində də erməni işğalçılarına qarşı döyüşlərdə iştirak etmiş, torpaqlarımızın azad olunması uğrunda qəhrəmanlıqla vuruşmuşdu.

1991-ci ilin oktyabr ayında yaradılan və tərkibində yüzlərlə igid döyüşçünü birləşdirən "Kəlbəcər taboru" Kəlbəcəri 1993-cü ilin aprelinədək mərdliklə müdafiə etmişdi. 1992-ci ildə 701-ci hərbi hissə ilə birləşərək 3-cü tabor adlandırılmış "Kəlbəcər taboru" Qarabağ müharibəsinin sonunadək ön cəbhədə fəal vuruşmuşdur. 1993-cü ilin dekabrında Murovdağ silsiləsinin qarlı zirvələrini aşaraq düşmən arxasına, Kəlbəcərin Bozdu və Təkəqayası kəndlərinə etdiyi əfsanəvi yürüş isə qürurverici qalibiyyətləri ilə hələ də yaddaşlarda bir ömürboyu silinməyəcək izlər həkk edib. Taborun cəsur döyüşçüləri qış fəslində minlərlə metr yüksəklikdəki Murovdağın qarla örtülmüş zirvələrini bir həmlədəcə ələ keçirərək düşmən üzərinə hücum edərək onları pərən-pərən salmışdı. Kəlbəcər uğrunda ölüm-dirim yürüşünə çıxıb qısa zaman ərzində xeyli kəndi azad edən igidlər arasında Mürşüd Məmmədov da var idi. Döyüşçü yoldaşlarının xatirələrində də dəfələrlə vurğulanır ki, birinci "Murovdağ əməliyyatı" zamanı ən ağır hücum istiqmətlərində döyüşləri məhz Mürşüd Məmmədovun rəhbərlik etdiyi bölük aparırdı...

*Böyük oğlu Ricayın dediklərindən: "Atamın döyüş yoldaşları onun qəhrəmanlıqları barədə çox danışırlar. Amma onların hamısı atam haqqında bir məqamı xüsusi vurğulayırlar. Deyirlər ki, Mürşüd döyüş zamanı heç zaman yerə əyilmir, nəyinsə arxasında daldalanıb gizlənmirdi, dim-dik, şax, qorxmadan yeriyirdi düşmən üstünə. Apardığı bu cür açıq döyüşlərdə sanki düşmən gülləri ondan qorxurdu, yaxınına da düşə bilmirdi, hədəfdən yayınırdı. Hamımız buna məəttəl qalırdıq və düşünürdük ki, görünür hansısa İlahi qüvvə Mürşüdü bu namərdlərin gülləsindən qoruyur. Elə axırıncı döyüşündə də gizlənmədən, daldalanmadan düşmən üzərinə cəsarətlə yürümüşdü..."*

### Mayor poqonlarını çiyninə taxmaq qisməti olmadı...

Qorxmaz kapitanın çətin və uğurlu əməliyyatlarından biri 23 yanvar 1994-cü ildə, şəhidliyindən cəmi bir gün əvvəl, Kəlbəcər istiqamətində "Çəpli əməliyyatı" zamanı olmuşdu. Bu əməliyyatda kapitan Mürşüd Məmmədovun da olduğu 3-cü tabor Çəpli kəndinə hücum etmiş, döyüşdə düşmənin 3 tankını, iki avtomobilini və 240 nəfər əsgərini məhv etmiş, 5 düşmən zabiti əsir alınmışdı.

3 PDM, 6 avtomobil, tank əleyhinə idarə olunan raket qurğusu (PTURS) və xeyli silah-sursat qənimət götürülmüş, Ermənistandan Ağdərəyə gedən mühüm avtomobil yolu ələ keçirilmiş, düşmən qüvvələri parçalanmışdı. Uğurlu "Çəpli əməliyyatı"na görə taborun bütün döyüşçülərinə təşəkkür elan edilmiş, baş leytenant Fehruz Alışov "Hərbi xidmətlərə görə" medalı ilə, taborun bütün zabitlərinin isə növbədənkənar hərbi rütbə ilə təltif olunduqları elan edilmişdi. Kapitan Mürşüd Məmmədova da mayor rütbəsi verilmişdi...

Amma təəssüf ki, mayor poqonlarını çiyninə taxmaq ona qismət olmamışdı...

### Son döyüş

1994-cü ilin 24 yanvarında 3-cü tabor daha bir çətin tapşırığı yerinə yetirmək üçün Kəlbəcər istiqamətində hücum əməliyyatlarını genişləndirərək Qanlıkəndə düşmən arxasına göndərilmişdi...

Həmin o məşum şaxtalı-sazaqlı yanvar günündə Mürşüd Məmmədov Qanlıkənd yaxınlığında düşdükləri mühasirəni yarmaq, canı bahasına olsa belə bölüyünü qurtarmaq üçün çarpışırdı, amma vəziyyət getdikcə daha təhlükəli hal alır, hər tərəfdən üzərlərinə güllə yağışı yağırdı...

Qəhrəman döyüşçü ölümlə yarışdığı bu savaş dəqiqələrində sərrast atəşlə daha bir düşməni məhv etmişdi ki, birdən sanki köksünə iynə sancıldı...

Qeyri-ixtiyari kökündən sınmış qollu-budaqlı sərv kimi üzüquylu torpağa uzanan Mürşüdə elə gəlmişdi ki, qəfil atəş səsləri kəsildi, dünya qaranlığa büründü. Əlini qaldırıb sızlayan sinəsinə, yarasının üzərinə qoymaq istəsə də taqəti çatmamışdı, bədəni sustalırdı... Yumulan kirpikləri arasından ətrafı seyr etməyə başlamış, amma bəyaz qar üzərində qeybdən peyda olan və yavaş-yavaş ətrafını bürüyən bağrı pardaqlanmış al-qırmızı lalələrdən başqa heç nə görməmişdi...

Beləcə, yurdu, doğma torpağı uğrunda canını qurban verən, onu qanı ilə suvaran daha bir qəhrəman Azərbaycan oğlu ana Vətənin qucağında, doğma Kəlbəcərində əbədiyyətə qovuşmuşdu...

### Yoxluğuna anası cəmi bi il dözə bildi

Kəlbəcərsizliyin, köçkünlüyün izinsiz qonaq kimi həyatımıza daxil olduğu o məşum günlərdə kəndimizin cəsur övladı, əmimiz oğlu mayor Mürşüd Məmmədovun şəhidlik xəbəri ürəyimizə sağalmaz yara kimi dağ vurdu. O günlərdən hafizəmizə cəsur döyüşçünün qürurla danışdığı qəhrəmanlıqlarla dolu döyüş xatirələri, gülümsəyərək bizə Kəlbəcərə dönüş ümidi verən qartal baxışlı bir ərən köçdü yaddaşlarımıza...

Bir də o günlərdən "Mürşüd, qardaş, quru yerdə yatma, yaralısan" deyərək fəryad edən Yəmən bibimin naləsi qaldı qulaqlarımızda...

Kəlbəcərdə doğulub boya-başa çatan, elə canını da Kəlbəcər uğrunda qurban verən qəhrəman döyüşçü üç gözüyaşlı körpə, Ricay, Amil, Sevinc adlı övladlarını dəyanətli, vəfalı ömür gün yoldaşı Çimnaza əmanət edib köçmüşdü bu dünyadan...

Mürşüdün yoxluğuna anası Səmayə xala cəmi bir il dözə bildi və son nəfəsini də "yaralı balam" deyə-deyə verdi. Oğul itkisinə dözə bilməyən dağ gövdəli Seyid Ağa kişinin bir andaca beli büküldü, qəddi sındı. Övlad dərdinin yükünü çəkməyə gücü çatmayan ata da bir neçə ildən sonra bu dünyayla vidalaşıb Mürşüdünə qovuşmağa tələsdi...

### Elmin sirlərini məktəbdə, vətənpərvərlik dərsini isə həyatda keçib əbədiyyətə qovuşdu...

Bəli, bu illər ərzində bütün şəhidlərimiz kimi kəndimizin igid oğlu Mürşüd Məmmədovun da ömrünün yarıda qırılmasına yanıb-yaxıldıq. Dedik ki, "kaş doğma Kəlbəcəri uğrunda dağ-daş, qarboran, şaxta-sazaq demədən döyüşə yollanan Mürşüd Məmmədovun sinəsindən Qanlıkənddə də namərd düşmənin gülləsi yayınaydı..."

Heyhat, nə yazıq ki, bəşər övladının nə taleyə, nə zamana, nə də yaşananlara "dur" deyə biləcək iqtidarı yoxdur. Amma insanlara Tanrı tərəfindən ana Vətən uğrunda canından, qanından keçən şəhidlərin qisasını almaq və ruhları şad etmək kimi müqəddəs bir missiya da ərməğan olunub. Elə 44 günlük Vətən müharibəsində də şanlı Azərbaycan Ordusu çıxdığı müzəffər yürüşdə Qarabağımızı işğaldan azad edərək onun uğrunda şəhid olan igid oğullarımızın qisasını aldı, qanlarını yerdə qoymadı...

Bu gün əfsanəvi "Kəlbəcər taboru"nda cəsurluqla savaşan doğma yurdu uğrunda canından keçən Mürşüd Məmmədovun da ruhu şaddır, qanı alınıb, qisası yarımçıq qalmayıb. Daha Kəlbəcərdən, Sınıqkilsədən, Qanlıkənddən və illərdir işğal altında qalan torpaqlarımızdan düşmənin murdar ayağı qazınaraq atılıb. İndi babasının uğrunda can qoyduğu Kəlbəcərdə balaca Mürşüd qürurla yaşayacaq, belə bir qəhrəmanın nəvəsi olduğu üçün daim fəxarətli olacaq...

Ölümündən sonra qəhrəman zabit Ulu Öndər Heydər Əliyev tərəfindən "Hərbi xidmətlərə görə" medalı ilə təltif olunmuş, Mürşüd Məmmədovun adı əbədiləşdirilərək Kəlbəcər rayonu 42 nömrəli məktəbinə verilmişdir.

Cəsur döyüşçü ömrünün ən qaynar çağında həyatla vidalaşsa da, bu qısa zaman salnaməsinə başdan-başa qəhrəmanlıqlarla dolu şanlı səhifələr həkk etdi. Elə buna görə də Vətən uğrunda saysız döyüşlərdə mərdliklə vuruşub şəhadət məqamına yüksələn Mürşüd Məmmədovun qürurverici, eyni dərəcədə də qüssəli həyat hekayəsini bir yazıya sığdırmaq mümkün deyil. Amma Kəlbəcərin azad olduğu bu xoşbəxt günlərdə Kəlbəcər uğrunda gözünü qırpmadan ölümə atılaraq bir daha geri dönməyən şəhidimiz haqqında yazmasaq da olmazdı...

Lakin nə etsək də, nə desək də, qanınla imza atdığın bu qəhrəmanlıq zirvəsi qarşısında sönük qalar, haqqını ödəyə bilmərik!

*Ruhun şad olsun, Mürşüd müəllim, sən bizə elmin sirlərini məktəbdə, vətənpərvərlik dərsini isə həyatda keçib şəhadətə, insan oğlunun fəth edə biləcəyi ən yüksək məqama ucaldın, əbədiyaşar olub sonsuzluğa qovuşdun...*

***Yasəmən QƏNAƏTQIZI,***
***"Azərbaycan"***



# Əbədi ehtiram ünvanı

### Aprel qəhrəmanlarının xatirəsi onların şəhadət ildönümündə anıldı

*...Onlar susdurulan haqqı dindirər,*
*Qaraca torpağı qiymətləndirər.*
*Donan vicdanları qeyrətləndirər,*
*Axı, el qeyrəti çəkdi şəhidlər...*

II Fəxri xiyabanın qarşısında Bəxtiyar Vahabzadənin 20 Yanvar şəhidlərinə yazdığı bu misraları xatırlayırıq... Əzbər deyə-deyə gedirik şəhidləri ziyarət etməyə...

### Pilotların ziyarəti

Əzbər bilirik, çünki bu şeir o vaxt yanan qəlblərə su səpmişdi, çünki hamının od tutub qisas hissi ilə yanan ürəyindən xəbər vermişdi.

*Kütləni xalq edən müqaviləyə*
*Qanıyla qolunu çəkdi şəhidlər.*
*İnsan insan olur öz hünəriylə,*
*Millət millət olur xeyri, şəriylə.*
*Torpağın bağrına cəsədləriylə,*
*Azadlıq tumunu əkdi şəhidlər...*

Şəhid sözü dilimizə 1990-cı ildən hopdu, yoxsa nə bilirdik şəhid nədir. Nə kitabda oxumuşduq, nə də dərsdə keçmişdik. Yalnız müqəddəs kitabımızda vardı bu ad... Onu da elə bilirdik yalnız Tanrı, din yolunda qurban gedənlərə deyilir.

1990-cı ildə 20 Yanvar faciəsindən sonra bildik ki, şəhid həm də torpaq, vətən, azadlıq, həqiqət uğrunda canını fəda edənlərdir. O şəhidlərin Dağüstü parkda dəfni bu sözün özü kimi bir çox üstü pərdələnmiş, basdırılmış tarixi həqiqətləri aşkara çıxartdı. Məlum oldu ki, həmin yer Çəmbərəkənd məzarlığı adlanıb və 100 il öncə orda ermənilərin qırdığı soydaşlarımız kütləvi dəfn edilib...

...Xiyabanın qarşısında bizi izdiham qarşılayır. Daha doğrusu, məsafəli izdiham. Bizi yaxalamış daha bir bəladan - pandemiyadan qorunmaq üçün kütləvi toplaşmağın qarşısını almağa çalışırıq. O səbəbdən də bu gün həmkarlarını, silahdaşlarını ziyarətə gələn pilotlar məsafə saxlamaqla sıralanmışdılar. Əvvəlki sıradakıların tutduqları əklillərin üstündə "Hərbi Hava Qüvvələri"ndən, "Dostların"dan, "Pilotlar"dan sözləri yazılmışdı.



### Keçilməz erməni səngəri mifi alt-üst oldu

2016-cı il aprelin əvvəllərində Azərbaycanın ön xətt mövqeləri və yaşayış məntəqələri Ermənistan silahlı qüvvələri tərəfindən intensiv artilleriya atəşinə məruz qaldı. Məqsədləri Azərbaycanın başqa ərazilərini də işğal edib irəliləmək idi. Elə düşünürdülər ki, ordumuz onların qarşısında dura bilməyəcək. Daha ağıllarına gəlmirdi ki, Azərbaycan 1990-cı illərdəki müstəqilliyi yenicə qazanmış, hələ ordusu, dövlətçiliyi formalaşmamış, diplomatiyası püxtələşməmiş, aldığı zərbələrin təsirindən ayılmamış həmin Azərbaycan deyil.

Azərbaycanın bu gün dövlətçiliyi, ordusu, gücü, milli ruhu, əzmkar Ali Baş Komandanı var. Bu da o deməkdir ki, istənilən işğalçının qarşısında dimdik dayanmaqla kifayətlənməyib, onu yuvasına qədər qovmaq bacarığına malikdir. Əgər işğal altında olan torpaqlarını sülh yolu ilə azad etmək istəyirsə, bu onun zəifliyi deyil, gücüdür.

Anlamadılar və ilk dəfə məhz 2016-cı ilin aprelində qəsbkarlığın altını çəkdilər. Ordumuz əks-həmlə ilə təxribatların qarşısını aldı. Bu da Aprel döyüşləri kimi tariximizə şərəflə yazıldı.

Döyüşlər Azərbaycan Ordusunun qələbəsi ilə nəticələndi. Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi və Goranboy rayonunun Gülüstan kəndi və Tərtər rayonunun Madagiz kəndi istiqamətində bəzi mövqelər düşməndən azad olundu. Bununla da cinayətkar erməni rəhbərlərinin keçilməz erməni səngərləri haqqında mifi alt-üst edildi.

Aprelin 4-ü Ermənistan ordusu itirilmiş mövqelərini geri qaytarmaq məqsədilə cəbhənin Ağdərə-Tərtər və Xocavənd-Füzuli istiqamətlərində mövqelərimizə yenidən hücum etdi. Təmas xəttinə yaxın yaşayış məntəqələrimizi intensiv atəşə tutdu. Amma döyüşçülərimizin şücaəti qarşısında məqsədinə nail ola bilmədi. Hətta Goranboy rayonu və Naftalan şəhərinə təhlükə yarada biləcək nöqtələr zərərsizləşdirildi. Talış məntəqəsi ətrafında, cənubda isə Horadiz şəhəri və Araz çayı boyu Cəbrayıl rayonunun bəzi kəndlərinin düşmən təhlükəsindən qorunması üçün Lələtəpə yüksəkliyi ilə ətrafındakı strateji cəhətdən mühüm ərazilər işğaldan azad edildi.

### Qələbənin özülü Aprel döyüşlərində qoyuldu

Erməni silahlı qüvvələri bu döyüşlərdə böyük itki verdi. 320-dən artıq əsgəri məhv edildi. 500-dən artıq erməni hərbi qulluqçusu yaralandı. 30-dək tankı və digər zirehli texnikası, 25-dən artıq artilleriya qurğusu sıradan çıxarıldı. Madagiz yaşayış məntəqəsində yerləşən qərargahları və əsas hərbi hissələri tamamilə məhv edildi. Ölkəmiz Ağdərə-Madagiz, Cəbrayıl istiqamətində yolları nəzarətdə saxlamaq imkanı qazandı.

Bunları saydıqca 44 günlük Vətən müharibəsində Ali Baş Komandanın hər gün efirdə ordumuzun qələbələri və düşmənin itkiləri ilə bağlı verdiyi məlumatlar yada düşür. Sevindirici və qürurverici idi. Bu qələbənin özülü məhz Aprel döyüşlərində qoyulmuşdu.

Aprel döyüşləri həm bütün dünyaya, həm də düşmənə sübut etdi ki, Azərbaycan bu qələbə əzmi ilə bir qarış torpağını da işğal altında qoymaq fikrində deyil. Onun sülh istəyi, işğala döyüşsüz son qoymaq cəhdləri yalnız insanpərvərlikdən irəli gəlirdi.

### 5 igidin məzarı önündə

Aprel şəhidləri böyük qələbəmizin ilk müjdəçiləri, qaranquşlarıdır. II Fəxri xiyabanda onlardan yalnız beşi dəfn olunub. Qalanları Azərbaycanımızın müxtəlif bölgələrində torpağa tapşırılıblar. Uğrunda qurban getdiklər, vətən etdikləri torpağa...

Polkovnik-leytenant Murad Mirzəyev, mayor Urfan Vəlizadə, mayor Təbriz Musazadə, baş leytenant Əbu Bəkir İsmayılov, baş leytenant Mirzə Novruzovun məzarları başında yalnız onların yaxınları deyildi. Ziyarətə gələn pilotlar, silahdaşlarının məzarlarını ziyarət edib, gül dəstələri qoyub, baş əyib kənara çəkilirdilər.

İndi Aprel şəhidlərini ziyarətə əvvəlki dövrlərdən fərqli olaraq daha qürurla, alnıaçıq, üzüağ gedirik... Qalib kimi...

Həmkarlarının məzarı başında ürək sözlərini deyən pilotların ovqatı da məhz buna köklənmişdi. Elə bil, bir növ hesabata gəlmişdilər. Məzardakı silahdaşlarına - "qardaşlar, siz rahat uyuyun, qisasınız alındı, uğrunda şəhid olduğunuz Vətən qələbə qazandı" dedilər.

Pilotlardan biri aşağı çöküb Əbu Bəkirin məzarına nə isə pıçıldadı. Sonra yaxınlaşıb "sir deyilsə, orda nə pıçıldadınız deyə soruşduq. Gənc pilot "biz Əbu Bəkirlə bir yerdə oxumuşuq, ona verdiyim sözü yerinə yetirdiyimi dedim" - söylədi.

Əbu Bəkir cəmi 6 ay evli olmuşdu. Məzarı başında indi anası, qardaşı, bir də pilot paltarında, yaxasında "Pilot Əbu Bəkir" yazılmış bir yaşında uşaq vardı. Şəhidin qardaşı oğludur. Şəhidlər ölmür, çünki onların tutduğu müqəddəs yol bitən deyil, əbədidir...

***Ramilə QURBANLI,***
***"Azərbaycan"***

# Zəngilanda bir dağ var

Faiq Qalayçiyev bir il öncə yaşadığı Balakən rayonunun Kortala kəndindən hərbi xidmətə çağırılmışdı. "Ana qurban boyuna, heç vaxt məni başıaşağı etməmisən, inanıram ki, yenə də belə olacaq" deyib anası onu yola salmışdı. O isə "Ana, sən mənimlə fəxr edəcəksən, qürur duyacaqsan, narahat olma" söyləmişdi. Qonşulara da "Daha gecələr rahat yatın, mən sizi qorumağa gedirəm" demişdi.

Rəqsi də sevirdi Faiq, gözəl geyinməyi də, könülləri xoş sözlərlə sevindirməyi də. Evləri Kortalanın Beçağar adlanan hissəsində yerləşən Faiq Kortalaya gələndə kortalalılar, Kortaladan Beçağara gedəndə beçağarlılar sevinərdi və ətrafına yığılıb həmsöhbət olmağa can atardılar.

Böyüdükcə hörməti daha da artan Faiqin söhbətləri də, davranışı da, rəftarı da fərqli idi. O, ətrafındakılarla ünsiyyət qurmağı bacarırdı.

Anası Adilə xanım həyat yoldaşı İsrafil rəhmətə gedəndən sonra üç uşağı təkbaşına, min bir əziyyətlə böyüdüb ərsəyə çatdırmış, onları bacardığı qədər korluq çəkməyə qoymamışdı. Balalarının atasız olduqlarını hiss etməmələri üçün bütün əziyyətlərə sinə gərmişdi Adilə xanım. Bununla belə, kişi qeyrətli xanım övladlarına nümunəvi tərbiyə vermiş, vətəni sevməyi, böyük-kiçiyin yerini bilməyi öyrətmişdi.

Yəqin, elə həm də bu səbəbdən ordu sıralarında xidmət edən Faiq torpaqlarımızın azadlığı uğrunda gedən Vətən savaşında cəsarətlə



vuruşdu, qorxunun nə olduğunu bilmədi. Ancaq nə edəsən ki, mənfur düşmən gülləsi onu aramızdan tez apardı.

Dəfn günü bir mərasim idi elə bil. Bu hörməti özü qazanmışdı - Vətən və yurd sevgisi ilə. O, indi yoxdur, amma əvəzində Zəngilanda bir dağ var. Onun da adı Faiqdir. Döyüş yoldaşları həmin dağa bu adı şəhid Faiqin şərəfinə veriblər.

*Bu dağlar ulu dağlar,*
*Zirvəsi qarlı dağlar,*
*Biz Faiqi itirdik,*
*Sən yaşa, ulu dağlar.*

Faiq ölmədi, ölməzlik zirvəsinə yüksəldi. O, həmişə ürəyimizdədir. Çünki Vətən uğrunda şəhid olub, döyüş yoldaşları ilə birlikdə Azərbaycanı bütövləşdirib, Qarabağı Azərbaycana qovuşdurub.

Bu gün anası da, bacısı da, qardaşı da Faiqin xiffətini çox çəkirlər. Lakin başları ucadır. Çünki Faiq kimi bir övladın doğmalarıdırlar. Bu gün onların tam haqları var ki, ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə" medalları və "Qarabağ ordeni" ilə təltif olunan Faiqlə fəxr etsinlər.

***Samrat QURBANƏLİYEVA,***
***Balakən rayonu,***
***Kortala kəndi***

## Biz birlikdə güclüyük!

# Pandemiya dövründə virusla mübarizədə vətəndaş məsuliyyəti vacib şərtdir

Əvvəli 1-ci səh.

Goranboy Rayon Polis Şöbəsinin (RPŞ) əməkdaşları tərəfindən keçirilən müvafiq tədbirlər nəticəsində də koronavirus testinin nəticəsi pozitiv çıxmış, rayonun Qazançı kənd sakini Saqif Atayevin ev şəraitində müalicə almasına baxmayaraq, karantin qaydalarını kobud şəkildə pozaraq, yaşadıqları ünvanı tərk etməsi aşkarlanıb. Hər iki vətəndaşla polis əməkdaşları profilaktik söhbətlər aparıb və yaşadığı evə geri qaytarılıb.

Koronavirus artıq bir ildən çoxdur ki, yayılıb. Təəssüf ki, hər kəsin bu təhlükəli pandemiya barədə kifayət qədər məlumatı olmasına baxmayaraq, bəzi vətəndaşlar ona laqeyd və məsuliyyətsiz yanaşırlar. Elə bu cür biganəlik və məsuliyyətsizlik gözəgörünməz düşmənin daha da güclənməsinə səbəb olur.

Dünyanı ağuşuna alan pandemiya həyatımızı məcrasından çıxarıb. Koronavirusun geniş yayılmasının qarşısının alınması üçün müxtəlif vaxtlarda karantin, sərt karantin, məhdudiyyətlər və qadağalar tətbiq olunub. Bütün cəhdlərə, aparılan araşdırmalara baxmayaraq, gözlənilməz pandemiyanın tamamilə aradan qaldırılmasına hələlik nail olunmayıb. Dünyanın əksər ölkələrində koronavirusa qalib gəlmək üçün araşdırmalar aparıldığı, müəyyən nəticələr əldə olunduğu bir vaxtda virusun mutasiyaya uğraması ilə bağlı yeni xəbərlər də yayılmaqdadır. Britaniya ştammının ardınca Braziliyanın San-Paulo ştatında koronavirusun yeni mutasiyası aşkarlandığı barədə Butantan İnstitutunun direktoru Dimas Kovas məlumat verib. Keçirdiyi mətbuat konfransında o, aparılan təhlillər nəticəsində əyalətin Sorokoba şəhərində koronavirusun Cənubi Afrika ştammına bənzəyən yeni bir növünə rast gəldiklərini bildirib. Qeyd edib ki, virusun aşkarlandığı şəxs Cənubi Afrikaya səyahət etməyib və oraya səyahət edən heç kimlə təmasda olmayıb: "Bu səbəbdən yeni ştamm ölkənin Amazonas ştatının Manaos şəhərində ortaya çıxan daha yoluxucu növün mutasiyaya uğramış halı ola bilər". Dimas Kovas sözügedən mutasiyanın hələlik yalnız bir şəxsdə aşkarlandığını, onunla təmasda olanların karantinə alındığını diqqətə çatdırıb.

Gözəgörünməz düşmən nə qədər güclü və dəyişkən olsa da, ona qarşı mübarizə tədbirləri əzmlə davam etdirilir. Yeni müalicə üsulları, yeni vasitələr axtarılır.

Dünyanın bir çox aparıcı ölkələri ilə eyni vaxtda Azərbaycanda da vaksinasiya prosesinə başlanılıb. Qeyd edək ki, yeni növ koronavirusun ölkəmizdə rəsmi olaraq ilk dəfə qeydə alındığı vaxtdan etibarən onun geniş yayılmasının qarşısının alınması istiqamətində dövlət tərəfindən ciddi tədbir görülür. Bütün dünyada olduğu kimi, ölkəmizdə də koronavirusla mübarizənin yeni mərhələsinə qədəm qoyulub. Virusla mübarizə strategiyasına uyğun olaraq, bu ilin yanvarın 18-dən ölkəmizdə vaksinasiya aparılır. Müxtəlif yaş qrupları üzrə həyata keçirilən peyvəndləmə prosesi uğurla davam edir. Hazırda dünyanın bəzi ölkələrində vaksin alınması məsələsi çox ciddi bir problemə çevrilib. Amma buna baxmayaraq, Azərbaycan artıq bir sıra şirkətlə əldə etdiyi razılaşmalara əsasən, bir neçə peyvəndin alınmasına nail olub. Nazirlər Kabineti yanında Operativ Qərargah martın 31-də pandemiya ilə bağlı vəziyyəti və peyvəndləmə prosesini müzakirə edib. Baş nazir Əli Əsədovun sədrliyi ilə Nazirlər Kabineti yanında Operativ Qərargahın keçirdiyi növbəti iclasda qərargah üzvləri, şəhər və rayonların İcra hakimiyyəti başçıları və baş həkimlər iştirak ediblər. İclas zamanı ölkədə pandemiyaya qarşı mübarizənin vəziyyəti - yoluxmanın dinamikası və peyvəndləmə prosesinin gedişi müzakirə olunub. Ölkədə peyvənd ehtiyatı ilə bağlı vəziyyətin qənaətbəxş olduğu qeyd edilib. Peyvəndlənmənin əhəmiyyətinə dair maarifləndirmə işinin daha da genişləndirilməsi, peyvənd vurulması prosesinin sürətləndirilməsi və nəzarətin gücləndirilməsi haqda tapşırıqlar verilib.

Pandemiya ilə mübarizədə dövlət ilk günlərdən vacib tədbirləri həyata keçirir. Bu tədbirlərin səmərəli olması üçün hər bir vətəndaş da məsuliyyət hissini unutmamalı, öz üzərinə düşən vəzifəni layiqincə yerinə yetirməlidir. Koronavirusla mübarizədə ilk vaxtlarda irəli sürülən üç qaydaya ciddi əməl etmək, maska taxmaq, məsafə saxlamaq, gigiyenik qaydalara riayət etmək çox da çətin deyil. Bu qaydalar təhlükəli virusun yayılma zəncirini əsaslı şəkildə qırmaqda mühüm rol oynayır. Yaddan çıxarmayaq ki, ictimai məsuliyyət koronavirusun yayılmasının qarşısının alınması üçün əsas şərtlərdən biridir.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***




## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi dəftərxana mallarının *kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir*

